

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 5 (24.491)
7 fevral 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Əbu-Dabi görüşü

## Azərbaycan-BƏƏ strateji tərəfdaşlığı hərtərəflilik xarakterinə uyğun genişlənir



Azərbaycanın xarici siyasət kursunda İslam dünyası ölkələri ilə hərtərəfli əlaqələrin qurulması, əməkdaşlıqların dərinləşdirilməsi prioritet hədəflərdəndir. Bu xüsusda Ərəb Dövlətləri Liqasının fəal üzvlərindən olan Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər xalqların tarixi köklərə malik mənəvi dəyərlərinə, ənənələrə və liderlərin möhkəm dostluğuna əsaslanır. Təqdiredici haldır ki, ötən dövrdə hər iki ölkə Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla bir sıra beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq platforması formalaşdırıblar. Bu baxımdan, Azərbaycanın BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv olduğu 2012-2013-cü illərdə BƏƏ-nin ölkəmizə göstərdiyi siyasi dəstək dövlətimiz və cəmiyyətimiz tərəfindən böyük məmnunluqla qarşılanır. Hər iki ölkənin rəhbəri qarşılıqlı siyasi dialoqun genişlənməsinə böyük səy göstərir və bu amil qarşılıqlı səfərlər zamanı yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsində, sənədlərin imzalanmasında özünü göstərir. Fevralın 2-də Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərinə növbəti işgüzar səfəri də birgə fəaliyyətə dair vahid hədəflərin müzakirəsi və yeni əməkdaşlıqlara imza atılması baxımından əlamətdar oldu.

Dünyada və regionda baş verən müxtəlif ictimai-siyasi proseslərə baxmayaraq, Azərbaycanla BƏƏ arasında diplomatik əlaqələr hər zaman yüksək səviyyədə olub. Birləşmiş Ərəb Əmirlikləri 1991-ci il dekabrın 26-da Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdəndir. Bir il sonra isə hər iki respublika arasında diplomatik münasibətlər qurulub və 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə iki ölkə arasında münasibətlər dostluq zəminində yüksək trayektoriya qazanıb. BƏƏ daim Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə öz dəstəyini ifadə edib. 2024-cü ilin yanvarında BƏƏ Prezidentinin Azərbaycana ilk rəsmi səfəri zamanı "Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu"nun imzalanması, 2025-ci ilin sentyabrında isə "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə"nin qüvvəyə minməsi ikitərəfli əlaqələrin tarixində yeni səhifə açıb. Prezident İlham Əliyev bu bəyannamənin siyasi əlaqələri ən yüksək səviyyəyə qaldırdığını vurğulayıb: ***"İmzalanmış hər bir sənəd böyük əhəmiyyət daşıyır. Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir".***

Səhifə ⇨ 3

## Zəfər seçkisi dövlətinə və liderinə inamın təntənəsi



Səhifə ⇨ 2

## Vaşinqton Sülh Sammitindən Davos əməkdaşlıq platformasına



Səhifə ⇨ 4

## Azərbaycan dövlətçiliyinin əməl və yaddaş mərkəzi NAXÇIVAN



Səhifə ⇨ 8-9

## Hesabı belə bağladıq – ÖMÜRLÜK HƏBS



Səhifə ⇨ 12

## Uşaqlığımızın bayramı, Xıdır, xoş gəldin!



Səhifə ⇨ 15

# Zəfər seçkisi

## dövlətinə və liderinə inamın təntənəsi

***2024-cü il fevralın 7-də müasir tariximizin ən yaddaqalan siyasi hadisələrindən biri baş verdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində prezident seçkisində səs verərək düşmən tabutuna son mismarı vurdu. Bu hadisə təkcə seçki proseduru deyil, həm də güclü siyasi rəmz idi. Xankəndi şəhərinin işğaldan azad edilməsindən iki ay sonra Xankəndi şəhərində keçirilən hərbi parad və fevral ayında baş tutan prezident seçkiləri Azərbaycanın suverenliyinin tam bərqərar olmasının, dövlət başçısının verdiyi vədlərin əməli nəticələrə çevrilməsinin bariz sübutu oldu. Xankəndi şəhərindəki səsvermə həm də Prezident İlham Əliyevin sözlə əməl arasında tam vəhdət yaratdığını bir daha göz önünə gətirdi.***

***Azərbaycan tarixinə “Zəfər seçkisi” kimi yazılan bu seçki həm də suverenlik, ərazi bütövlüyü və milli birliyin hüquqi-siyasi təsdiqi olmaqla yanaşı, postmünaqişə dövründə ölkənin inkişaf strategiyasına verilən xalq dəstəyinin ifadəsi oldu. Azərbaycanın siyasi tarixində yeni mərhələnin başlanğıcı sayılan Zəfər seçkisi yalnız səsvermə aktı deyil, Azərbaycan xalqının tarixi qələbəyə sahib çıxmasının, dövlətinə və liderinə inamının təntənəsi idi.***



Ulu Öndər yolunun layiqli davamçısı olan Prezident İlham Əliyev bu seçkidə xalqının önündə Müzəffər Sərkərdə, verdiyi sözlərə sadiq qalan lider kimi dayanmışdı. Onun növbəti dəfə xalqın etimadını qazanması Azərbaycanın qarşıdakı illərdə də sarsılmaz dövlətçilik, sabitlik və inkişaf yolu ilə irəliləyəcəyinə inam yaratdı. Bu seçkilər bir daha sübut etdi ki, Azərbaycan xalqı qazanılmış zəfərin qorunmasını və möhkəmləndirilməsini məhz mövcud siyasi kursun davamında görür.

Həmin gün bir çoxumuzun ağlına Azərbaycan Prezidenti seçilən İlham Əliyevin ilk dəfə ay-ulduzlu, üçrəngli Azərbaycan Bayrağı önündə Vətənə sədaqətlə xidmət edəcəyinə and içdiyi anlar gəldi. Elə həmin gün söz vermişdi bu bayrağı Şuşada, Xocalıda ucaldacağına. Bu söz 200 ildən çoxdur ki, torpaqları hissə-hissə qoparılıb pay verilən, körpələri dünyaya göz açmamış öldürülən xalqa, məzarsız oğullarının həsrəti ilə ürəyi yanan analara, yurdundan didərgin düşən insanlara, məzarsız şəhidlərə, Azərbaycanı canı ilə sevən Ataya verilən söz idi. Qarabağ kimi çətin bir problemi olan, müstəqilliyin dadını təzə-təzə alan, özünü dünyaya tanıdıb haqq səsini duyurmağa çalışan bir dövlətin Prezidenti olmaq və Ulu Öndərin vəsiyyətini yerinə yetirmək kimi ağır bir yükü almışdı çiyinlərinə 42 yaşlı siyasətçi. Vətənə, doğma xalqına ləyaqətlə, sədaqətlə xidmət edəcəyinə and içəndə o da yaxşı bilirdi, ədalətsiz bir dünyada yaşadığımızı. Güclünü haqlı görən bir dünyada. Lakin o, qətiyyətli və ümidli idi. İnanırdı ki, bu xalqla ən çətin yolları, keçilməz sədləri aşmaq mümkündür.

Tarix öz sözünü dedi və zaman Ulu Öndərin bütün bəlalardan xilas edib ayağa qaldırdığı Azərbaycanı əmin əllərə əmanət etdiyini sübuta yetirdi. Dahi siyasətçinin layiqli davamçısı dünyada söz sahibliyindən, Müzəffər Sərkərdəliyə gedən uzun bir yol qət etdi. Bu yol Heydər yolu, Ata vəsiyyətinin yerinə yetirilməsinə gedən yol idi. Çətin, keçilməz sədləri birləşərək bir olaraq aşdıq. Ölkə başçısı dünya səviyyəli tədbirlərdə dəfələrlə düşmən Baş nazirinə tarix dərsi keçib qəti mövqeyini açıq şəkildə bəyan edirdi: ***“Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir”.***

Verdiyi hər bir sözə sadiqlik göstərən ölkə başçısı Ulu Öndərin siyasi kursunu davam etdirib Azərbaycanı dünyaya tanıtdı və söz sahibinə çevirdi. Qafqazın ən güclü dövləti mövqeyinə gəldik. Əslində, 44 günlük Vətən müharibəsindən əvvəl də ölkə başçısının məhz bu yöndən qazandırdığı qələbənin şahidi olduq. Azərbaycanın adını gündəmdən düşürməyən ölkə rəhbəri bir-birinin ardınca müxtəlif beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsinə nail olmaqla Azərbaycanın mədəni, güvənilən, etibarlı, böyük layihələr keçirməyə qadir olan bir ölkə olduğunu göstərdi və bununla da tərəfkeşlərimizin sayını artırdı. Azərbaycan dövlətinin sərhədləri daxilində yaşayan insanlar gündən-günə inkişaf edən ölkənin vətəndaşları olaraq gələcəyə ümidlə baxır verdiyi hər sözü yerinə yetirən ölkə başçısına sədaqət nümayiş etdirirlər.



Elə məhz bunun nəticəsidir ki, keçirilən bütün prezident seçkilərində xalqın seçimi, layiqli namizəd İlham Əliyev oldu. Seçkilərdə səs çoxluğunun illər keçdikcə artması isə onu bir daha sübuta yetirdi ki, xalqın səsi hər bir azərbaycanlının Prezidenti olan Ulu Öndərin layiqli davamçısınındır. Diqqət etsək, görürük ki, 2003-cü ildə prezident seçkilərində cənab İlham Əliyev 70 faiz səs çoxluğu ilə ölkə başçısı seçilmişdisə, ondan sonrakı bütün seçkilərdə bu rəqəm artmış və 7 fevral 2024-cü ildə keçirilən seçkilərdə 92,12 faiz səs çoxluğu ilə Zəfər seçkisinin qalib Sərkərdəsi olmaq şərəfinə nail olmuşdur. Bu bir xalqın təkcə öz Prezidentinə yox, həm də Azərbaycanı canından çox sevən Ümummilli Liderinə sədaqəti idi. 44 günlük Vətən müharibəsindəki parlaq qələbəmiz nəinki dünya dövlətlərinin, türk xalqlarının, eləcə də Azərbaycandan kənarda, 5 qitədə yaşayan 50 milyondan çox soydaşımızın Ali Baş Komandana inamını, ümidini, güvənini artırdı. Artıq dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı fəxr duyur ki, onun Azərbaycan adlı qalib bir dövləti, Şuşada, Laçında, bütöv Azərbaycanın başı üstə məğrurluqla dalğalanan bir bayrağı, Vətəni üçün keçilməz sədləri aşıb ona can qurban edən igid oğulları və hər bir azərbaycanlının Prezidenti olmağı bacaran Müzəffər Sərkərdəsi var.

Ulu Öndər yolunu davam etdirərək xalqın etimadını qazanaraq, ordusuna mahir sərkərdəlik edərək Müzəffər Sərkərdə olan dövlət başçısının Azərbaycanın işıqlı gələcəyi üçün planları bir-bir yerinə yetirilir. Torpaqlarımız işğaldan azad edildiyi gündən illərdir, xəyalında olduğumuz Böyük Qayıdış başladı və torpağına, öz doğma yurduna dönən insanların ocağına qovuşmağının sevincini gördük. İllərdir, düşmənin qanlı caynağında xarabaya dönən yurd-yuvamız dirçəldi. Bu Vətən azad, müstəqil, suveren olmağın ən gözəl günlərini yaşayır.

Prezident İlham Əliyevin dövlət başçısı postunda fəaliyyətinin təhlili onu göstərir ki, o həmişə cəmiyyətin, dövlətin maraqlarını əsas tutaraq siyasi məharəti, yüksək mənəvi keyfiyyətləri, bacarığı sayəsində sadə insanlardan tutmuş dünyanın nüfuzlu şəxsiyyətlərinə kimi hər kəsin rəğbətini və hörmətini qazanaraq həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük nüfuz əldə etmişdir. O, Azərbaycanın dünyadakı səsi, bütün dünya azərbaycanlılarının hüquqlarının və təhlükəsizliyinin qarantıdır. O, keçmiş ənənələr üzərində müasir ölkəmizin yeni reallıqlarını yaradıb, güclü və müstəqil Azərbaycan naminə çalışıb. Bununla da xalqın yüksək etimadını və sonsuz məhəbbətini qazanaraq liderlik keyfiyyətləri ilə Azərbaycan vətəndaşlarının qəlbində özünə əbədi yer edib. Onun əsas istinad nöqtəsi Azərbaycan xalqının ən böyük nailiyyəti olan müstəqillikdir. Ulu Öndərin layiqli davamçısının şəxsiyyət obrazını milli-mənəvi dəyərlərə bağlılıq, müstəqillik ideyalarına sadiqlik, Azərbaycançılıq məfkurəsinə ali münasibət, müstəqillik, Vətən və xalq sevgisi tamamlayır.

**“Şərq qapısı”**

## Əbu-Dabi formatı regional sülh və qlobal əməkdaşlığa aparan yolda mühüm platformadır

Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri həm də Azərbaycan-Ermənistan sülh danışıqlarının hazırkı mərhələsi və bölgədəki yeni əməkdaşlıq mühitinin müzakirəsi baxımından əlamətdar oldu. Bu xüsusda onu diqqətə çəkmək yerinə düşər ki, ötən ilin iyul ayında da hər iki lider arasında ikitərəfli formatda görüş məhz BƏƏ-də baş tutmuşdu. Yəni yeni – ikitərəfli formatın əsası məhz bu ərəb ölkəsinin vasitəsilə mümkün olmuşdu. Prezi-



dent İlham Əliyevlə Nikol Paşinyanın budəfəki görüşünü isə artıq ötən il avqustun 8-də ABŞ Prezidenti Donald Trampın ev sahibliyi və şahidliyi ilə baş tutan Vaşinqton Sülh Sammitində əldə olunan tarixi razılaşmaların müzakirəsi baxımından daha əhəmiyyətli adlandırmaq olar. Formatın xüsusiliyi həm də dialoqlar zamanı nümayəndə heyətlərinin iştirak etməsi, yəni görüşün məhdud deyil, geniştərkibli olmasındadır. Bu da tərəflər arasında münasibətlərin ayrı-ayrı istiqamətlər üzrə nizama salınmasının daha ətraflı müzakirəsi nöqteyi-nəzərindən önəmlidir.

Görüş zamanı həm Azərbaycan, həm də Ermənistan təkcə dövlət səviyyəsində deyil, eyni zamanda hər iki cəmiyyətlərin sülhün faydalarına real həyatda şahid olduqlarını qeyd ediblər. İkitərəfli ticarətin başlamasından və Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davam etməsindən, həmçinin üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların Azərbaycan ərazisindən tranzitinin həyata keçirilməsindən məmnunluq ifadə olunub. Tərəflər ikitərəfli ticarət və iqtisadi əməkdaşlığı genişləndirmək üçün imkanları araşdırmağı davam etmək barədə razılığa gəliblər. Onlar həmçinin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərini alqışlayıb və etimad quruculuğu tədbirlərinin genişləndirilməsinin zəruriliyi barədə razılaşıblar. Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində çıxışı zamanı Prezident İlham Əliyev ötən ilin iyul ayında Əbu-Dabidə baş tutan görüşün sülhün əldə olunması baxımından əhəmiyyətinə toxundu, Vaşinqton Sülh Sammitindən ötən müddətdə münasibətlərin nizama salınması üçün mühüm addımların atıldığını vurğuladı: ***"Qeyd etdiyim kimi, bu altı ay münasibətlərimizin inkişafı baxımından çox mühüm olmuşdur. Biz təkcə Azərbaycan ərazisindən Ermənistana yük daşımalarına qoyulmuş məhdudiyyətləri aradan qaldırmadıq, eyni zamanda, Ermənistana neft məhsullarının ixracına da başladıq. Yəni bu altı ay ərzində biz əməkdaşlığa başlamışıq. Hazırda ticarət əlaqələrimizi genişləndiririk. Bu səhər ermənistanlı həmkarımla görüşdüm və gələcək addımlarımızı müzakirə etdik".***

Görüşdə ən vacib müzakirə predmeti isə, heç şübhəsiz, TRIPP, digər bir adla desək, Zəngəzur dəhlizi bağlantı layihəsi olub. Layihənin icrası ilə bağlı onu bildirmək olar ki, Azərbaycan dəhlizin (həm dəmir yolu, həm də avtomobil yolu) tikintisinə dair üzərinə düşən işləri uğurla yerinə yetirməkdədir. Azərbaycan və Türkiyə prezidentlərinin 2021-ci ildə təməlini qoyduğu Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu, eləcə də Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisi artıq yekunlaşmaq üzrədir. Ötən ilin dekabrın 5-dən etibarən isə artıq Ermənistanla sərhəddə, Ordubad rayonunun Salamməlik stansiyası ərazisində də tikinti işlərinə start verilib. Naxçıvan Muxtar Respublikasında dəmir yolu xəttinin layihəsi çərçivəsində, ümumilikdə, 10 stansiya, 814 mühəndis qurğusu, o cümlədən 29 körpü və 4 tunelin tikintisi nəzərdə tutulur. Ötən günlərdə "Zəngəzur" elektrik ötürmə xəttinin tikintisinə başlanılıb ki, bu da Prezident İlham Əliyevin uzunmüddətli strateji baxışının, sistemli enerji siyasətinin göstəricisidir. Bu elektrik xəttinin çəkilişi ilə Naxçıvanın ölkəmizin enerji sisteminə tam inteqrasiyası təmin olunacaq.

Beləliklə, qeyd etdiyimiz bu və digər bağlantı layihələrinin icrası Azərbaycan dövlətinin Vətən müharibəsindən sonra regionda yaratdığı yeni reallıqlar fonunda Naxçıvanla bağlı böyük planların tam gerçəkləşməsinə imkan verəcək. Ümumiyyətlə isə Zəngəzur dəhlizi həm milli maraqların, həm də qlobal təşəbbüslərin reallaşmasına xidmət edəcək. Cənubi Qafqazı Avropa və Asiya arasında strateji körpüyə çevirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" – TRIPP layihəsi Orta Dəhlizin yükaşırma qabiliyyətini artırmaqla Avrasiyanın mühüm logistika arteriyası statusuna malik olacaq.

Münasibətləri nizama salacaq qeyd etdiyimiz bütün bu məsələlərin Birləşmiş Ərəb Əmirliklərində liderlər və nümayəndə heyətlərinin iştirakı ilə müzakirəsi belə deməyə əsas verir ki, artıq təkcə Azərbaycanı deyil, Ermənistanı da bölgənin gələcək taleyi maraqlandırır, qarşı tərəf də ortaya iradə qoymaqdadır. Sözsüz ki, bu da bölgədəki sülh və əməkdaşlığın dayanıqlığına, əvvəllər mövcud olan kənar qüvvələrin təsirinin azaldığından xəbər verir. Ümumilikdə isə Əbu-Dabi görüşü iki ölkə arasında sülhün və sabitliyin daha da möhkəmləndirilməsi istiqamətində səylərin davam etdiriləcəyini, ikitərəfli normallaşma prosesinə dəstək məqsədilə dialoqların aparılacağını göstərir.



# Əbu-Dabi görüşü:

## Azərbaycan-BƏƏ strateji tərəfdaşlığı hərtərəflilik xarakterinə uyğun genişlənir

Azərbaycan-BƏƏ hərtərəfli strateji tərəfdaşlığı özünü ikitərəfli iqtisadi münasibətlərin inkişafında daha bariz şəkildə göstərir. Bu müstəvidə enerji sektoru xüsusi çəkiyə və rola malikdir. Belə ki, zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan ilbəil bu sahədə imkanlarını daha da şaxələndirir və eyni zamanda elektrik enerjisi, əsasən də, "yaşıl enerji"nin önəmli təchizatçısına çevrilmək təşəbbüsləri ilə çıxış edir. Bu mənada, Xəzər regionunda və MDB məka-



nında ən böyük günəş elektrik stansiyasının – "Qaradağ" Günəş Elektrik Stansiyasının məhz BƏƏ şirkətinin investisiyası hesabına tikilib istifadəyə verilməsi də olduqca uğurlu, faydalı əməkdaşlıqdan xəbər verir. Gələcəkdə Qarabağda, Şərqi Zəngəzurda və Naxçıvanda qeyri-neft sekoru, sənaye, "yaşıl enerji" üzrə yeni layihələrin icrasında BƏƏ şirkətlərinin yaxından iştirakı bölgədə iqtisadi həyatın yüksəlişinə güclü təsir göstərəcək.

Ümumilikdə, indiyədək Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında siyasi, iqtisadi, enerji, humanitar və mədəni sahələri əhatə edən 50-dən çox ikitərəfli sənəd imzalanıb ki, bu da münasibətlərin institusional əsaslar üzərində inkişaf etdiyini təsdiqləyir. Prezident İlham Əliyevin Əbu-Dabiyə növbəti işgüzar səfəri enerji sahəsində yeni əməkdaşlığın qurulması baxımından yadda qaldı. Liderlərin iştirakı ilə "Cənub Qaz Dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə dair sənəd imzalandı. Bu da, təbii ki, ikitərəfli enerji əməkdaşlığının dərinləşməsinə töhfə verməklə həm də yeni investisiyalar hesabına Avropaya qaz ixracatının artırılmasına dair ölkəmizin qarşıya qoyduğu hədəflər istiqamətində mühüm addımdır.

Məlum olduğu üzrə respublikamız hazırda 16 ölkəyə təbii qaz nəql edir ki, həmin ölkələrdən 10-u Avropa İttifaqının üzvüdür. Cənub Qaz Dəhlizinin tam işlək vəziyyətə düşdüyü vaxt, yəni 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, bu gün bu miqdar 13 milyarda çatdırılıb. 2022-ci ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası arasında "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"na əsasən 2027-ci ilə qədər illik ixracatın 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Məhz bu baxımdan Azərbaycan-BƏƏ əməkdaşlığına dair sənədin imzalanması mühümdür və qeyd etdiyimiz kimi, qarşıya qoyulan məqsədlərə çatmağa imkan verəcək.

Bu gün ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, bərpa olunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə inkişafı məmnunluq doğurur. Təqdirəlayiq haldır ki, Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələr artıq hərbi və müdafiə sahələrini də əhatə edir. Prezident İlham Əliyevin bu ölkəyə səfəri həm də bu baxımdan mühüm əhəmiyyət daşıdı. Səfər çərçivəsində Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Müdafiə Nazirliyi arasında müdafiə əməkdaşlığı razılaşması barədə niyyət məktubu imzalandı. Hərbi sahədə birgə əməkdaşlığın mühüm göstəricilərindən biri də iki ölkənin silahlı qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə Əbu-Dabidə "Sülh Qalxanı – 2026" birgə əməliyyat-taktiki təlimin keçirilməsi oldu. Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın da izlədiyi təlimin əsas məqsədi ölkələrimizin hərbi kontingentinin antiterror əməliyyatları üzrə peşə bacarıqlarını təkmilləşdirmək, dayanıqlı sülhün təmin olunmasına töhfə vermək və qarşılıqlı təcrübə mübadiləsi aparmaqdır. Məlum olduğu kimi, bu gün Azərbaycan Ordusu müharibə qalibi kimi regionun ən güclü ordularından biridir. BƏƏ ordusu da eyni gücə, qüdrətə malikdir. Belə olan halda bu təlimlər hər iki tərəf üçün olduqca faydalıdır və regionda sülhə, ölkələrin təhlükəsizliyinə, müdafiə qabiliyyətinin artırılmasına xidmət edir.

Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfərinin tarixi məqamlarından biri də "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində yaşandı. Bəli, respublikamızın milli maraqlarına uyğun bölgədə yeni sülh və ticarət arxitekturasının müvəffəqiyyətlə inşa olunması fonunda Cənubi Qafqaz artıq münaqişə zonası deyil, qlobal sabitlik, logistika və enerji mərkəzi kimi tanınmaqdadır. Bütün baş verən müsbət dəyişikliklərin timsalında ölkə başçımızın "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycan dövlətinin sülh, əməkdaşlıq diplomatiyasına beynəlxalq rəğbətin ifadəsi olmaqla respublikamızın rəhbərinin strateji müdriklik və liderlik məharətinin dünya miqyasında böyük etimad qazandığını göstərən mühüm amildir. Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində çıxışı zamanı Prezident İlham Əliyev sülhün xüsusi bir hiss olduğunu bildirdi: ***"Dəfələrlə qeyd etdiyim kimi, biz sülh şəraitində yaşamağı öyrənirik. Sizə deyə bilərəm ki, bu, xüsusi bir hissdir. Biz müstəqillik əldə edəndən bəri heç vaxt sülh şəraitində yaşamamışıq və indi bunu sürətlə öyrənirik. ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda ev sahibliyi etdiyi tarixi Zirvə Görüşündən sonrakı altı ay tərəfdaşlıq, əməkdaşlıq və uzunmüddətli, dayanıqlı sülhə doğru irəliləyiş ayları olmuşdur".***

Prezident İlham Əliyevin Əbu-Dabiyə növbəti işgüzar səfərindən gəlinən ümumi nəticə odur ki, Azərbaycan-BƏƏ münasibətləri inkişaf edir, əlaqələr günbəgün güclənir və burada hər iki liderin rolu böyükdür. Səfər çərçivəsində keçirilən görüşlər zamanı müdafiə, enerji, təhsil və digər sahələrin müzakirə predmetinə çevrilməsi, konkret istiqamətlərin müəyyənləşdirilməsi, imzalanan sənədlər strateji tərəfdaşlığın hərtərəfli xarakterə uyğun daha da genişlənəcəyinə, bu tərəfdaşlığın hər iki regiona, o cümlədən qlobal miqyasda böyük faydalar bəxş edəcəyinə əminlik yaradır.

✍ **Nail ƏSGƏROV**

# Vaşinqton Sülh Sammitindən Davos əməkdaşlıq platformasına

***Azərbaycan dövlətinin apardığı çoxvektorlu xarici siyasət doktrinası və məharətli diplomatiya, o cümlədən də regionun geosiyasi, geoiqtisadi mənzərəsini dəyişdirə biləcək siyasi iradə, qətiyyət dünyanın “Super gücü” ABŞ ilə əməkdaşlıqda yeni mərhələnin əsasını yaradıb. Ağ Evin yeni rəhbərliyinin son birillik hakimiyyəti dönəmi dövlət başçımızın ötən ilin mart ayında səsləndirdiyi “Biz Tramp administrasiyası dövründə ABŞ ilə münasibətlərimizin və güclü tərəfdaşlığımızın yenidən qurulmasına çox nikbin baxırıq” fikirlərinin real nəticəsini ortaya qoymaqdadır. İkitərəfli münasibətlərin zirvəsi kimi isə, heç şübhəsiz ötən il avqustun 8-də keçirilən Vaşinqton görüşünü xarakterizə etmək olar...***

***Ümumilikdə, Azərbaycan-ABŞ münasibətlərini həm tarixi, həm də müasir çağırışlar, yeni dünya nizamının formalaşdırılması baxımından təhlil etmək olar. Bu xüsusda onu diqqətə çəkə bilərik ki, Azərbaycanla ABŞ arasında diplomatik əlaqələr 1992-ci il fevralın 28-də qurulub. Respublikamızın ABŞ-dakı Səfirliyi 1992-ci ilin martında, ABŞ-nin ölkəmizdəki Səfirliyi isə 1992-ci ilin noyabr ayında açılıb. İkitərəfli münasibətlərin inkişafı isə təbii olaraq Ümummilli Liderimiz Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra mümkün olub. Bu mənada, ABŞ Prezidenti Bill Klintonun dəvəti ilə Ulu Öndər Heydər Əliyevin 1997-ci il iyulun 27-dən avqustun 7-dək bu ölkəyə səfəri ABŞ-Azərbaycan münasibətlərinin həmin dövrdə zirvəsi hesab edilir. Səfər ikitərəfli əlaqələri, regional vəziyyəti, qarşılıqlı maraqdoğuran beynəlxalq münasibətləri, iki ölkə arasında energetika sahəsində nəticələr verən əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün böyük imkan yaradıb. Ağ Evdə, Dövlət Departamentində və digər təşkilatlarda ən yüksək səviyyələrdə keçirilən görüşlərdə və aparılan çoxsaylı danışıqlarda ABŞ dövlət strukturlarının və iş adamlarının Azərbaycana maraqlarının artması bir daha təsdiq olunub.***



## Azərbaycan-ABŞ strateji tərəfdaşlığı: regional sülh, qlobal həmrəylik

1997-ci il avqustun 1-də Ulu Öndər Heydər Əliyevin ABŞ-yə rəsmi səfəri çərçivəsində ən əsas görüş ABŞ Prezidenti Bill Klintonla olub. Bu görüşün nəticəsi olaraq vacib rəsmi sənədlərin imzalanması ilə ölkələrimiz arasındakı münasibətlər yeni, əsl partnyorluq səviyyəsinə yüksələrək müstəqil Azərbaycanın tarixinə mühüm siyasi hadisə kimi düşüb. Azərbaycan və ABŞ liderlərinin təkbətək görüşü zamanı Bill Klinton dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanda gördüyü işləri, apardığı siyasəti, olduqca çətin şəraitdə ölkədə sabitlik və əmin-amanlıq yaranmasına nail olmasını yüksək qiymətləndirib. Avqustun 1-də Ağ Evin Ruzvelt otağında ABŞ-Azərbaycan münasibətləri haqqında Birgə bəyanatın və Sərmayə qoyuluşunun qarşılıqlı qorunması və qarşılıqlı təşviq edilməsi haqqında Azərbaycan Respublikası Hökuməti və ABŞ Hökuməti arasında müqavilənin imzalanması mərasimi olub. Bütün bu prosesləri və hazırkı dönəmi analiz edəndə Azərbaycan-ABŞ münasibətlərini siyasi irsə sədaqət və tarixi ənənələrin bərpası kimi də qiymətləndirmək olar.

Ölkələri yaxınlaşdıran ən mühüm məqamlardan biri liderlərin şəxsi keyfiyyətləri və öz ölkələrinin maraqlarını üstün tutmasıdır. Başqa sözlə, Trampın atdığı bütün addımlarda “Öncə ABŞ”, Prezident İlham Əliyevin isə “Öncə Azərbaycan” prinsipi ikitərəfli əlaqələrin dərinləşməsində əsas körpü rolunu oynayır. Eyni zamanda hər iki liderin beynəlxalq tribunalardan dünyaya sülh, əməkdaşlıq mesajı ünvanlaması və bu bəyanatların praktiki nəticələr verməsi birgə fəaliyyətə təşviq edən, maraqları kəsişdirən vacib amillərdəndir. Bu baxımdan, təsadüfi deyildir ki, Donald Tramp hakimiyyətə gəldikdən cəmi bir neçə ay sonra Cənubi Qafqazda sülh təşəbbüsləri intensivləşməyə, Azərbaycanın müəllifi olduğu sülh gündəliyi dəstəklənməyə başladı. Nəticə etibarilə, ötən il avqustun 8-də Vaşinqtonda keçirilən üçtərəfli görüş çərçivəsində Azərbaycan-Ermənistan sülh sazişi paraflandı, həmçinin Zəngəzur dəhlizinin rellaşdırılması istiqamətində əhəmiyyətli razılıqlar əldə olundu. Bu tarixi görüş həm də uzun illər soyuqlaşmaqda olan ABŞ-Azərbaycan münasibətlərindəki buzları da əritdi. Donald Trampın şəxsən Azərbaycan liderinin iştirakı ilə 907-ci düzəlişi ləğv etməsi əməkdaşlıq üçün mövcud əngəlləri aradan qaldırdı. Ardınca imzalanan Anlaşma Memorandumu ilə liderlər strateji tərəfdaşlıq yoluna qədəm qoyduqlarını açıq bəyan etmiş oldular. Beləliklə, 907-ci düzəlişin ləğvi və Anlaşma Memorandumu əsasında hazırlanacaq Strateji Tərəfdaşlıq Xartiyası ilə ABŞ-nin respublikamızla əvvəllər mövcud olan antiəməkdaşlıq səddi tamamilə aradan götürülərək qarşılıqlı sərmayələr, ticarət, enerji, rabitə, tranzit, süni intellekt, müdafiə təyinatlı məhsulların satışı, terrorizmlə mübarizəyə dair yeni iqtisadi münasibətlər sistemi yaranmasına geniş imkanlar açıldı. Ağ Evdə əldə olunan və Azərbaycan diplomatiyasının tarixi nailiyyəti hesab edilən razılaşmalardan biri, bəlkə də, elə birincisi Naxçıvan Muxtar Respublikası ilə ölkəmizin digər ərazisini birləşdirəcək kommunikasiyaların açılmasını nəzərdə tutur. Beləliklə, Vaşinqton görüşündə Ermənistan öz ərazisindən “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəyini təsdiqləməklə, əslində, elə Prezident İlham Əliyevin “Zəngəzur dəhlizi mütləq açılmalıdır, Azərbaycandan Azərbaycana maneəsiz keçid təmin olunmalıdır” ideyasını da təsdiqlədi.



Azərbaycanla ABŞ arasında münasibətlərin daha da dərinləşəcəyi Vaşinqton görüşündən sonrakı proseslərdə, o cümlədən liderlərin görüşlər, sosial şəbəkələr, məktublar vasitəsilə bir-birinin ünvanına səsləndirdikləri səmimi yüksək fikir, diqqət və ehtiramda özünü göstərir. Ötən il dekabrın 19-da isə hökumətlərin nümayəndələri Strateji Tərəfdaşlıq Xartiyası üzrə Strateji İşçi Qrupunun ilk iclasını keçirərək gələcək əməkdaşlığın müəyyənləşdirilməsi məsələlərini müzakirə ediblər ki, bu da tərəflərin əlaqələri gücləndirməkdə istəkli olduğunu təsdiqləyir. Nəhayət, bu il yanvarın 19-23-də baş tutan Davos Dünya İqtisadi Forumu da Azərbaycan-ABŞ münasibətlərinin müsbət istiqamətdə irəlilədiyini göstərən növbəti faktlarla yadda qaldı. Bu xüsusda forumda yaşanan ən mühüm tarixi hadisələrdən biri, sözsüz ki, ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan Sülh Şurasının təsisi üçün “Sülh Şurasının Nizamnaməsi” sənədinin imzalanması mərasimi oldu. Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycanın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümünə çevrildi. Eyni zamanda forum çərçivəsində Prezident İlham Əliyevlə Donald Tramp arasında görüş də keçirildi ki, bu hazırkı dönəmdə iki ölkə münasibətlərinin gedişatının müzakirəsi, gələcək birgə fəaliyyət və xüsusilə də Cənubi Qafqazda mövcud sülh şəraiti, Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində görüləcək işlərin müzakirəsi baxımından vacib əhəmiyyət daşıdı. Bu görüş və sülh şurasına üzvlük bir daha göstərdi ki, Azərbaycan-ABŞ strateji tərəfdaşlığı təkcə regional deyil, həm də qlobal əhəmiyyət daşıyır. Yəni ikitərəfli münasibətlərin məqsədi təkcə Cənubi Qafqazda sülhü, əməkdaşlığı təşviq etməklə məhdudlaşmır, həm də qlobal sülhə, həmrəyliyə xidmət edir. Son baş verən siyasi hadisələr belə deməyə əsas verir ki, Azərbaycan ABŞ üçün təkcə enerji tərəfdaşı deyil, həm də birgə qlobal sülhün əsas memarlarından birinə çevrilməkdədir.

Əminliklə demək olar ki, Azərbaycan-ABŞ strateji tərəfdaşlığı yaxın gələcəkdə özünü bütün sahələrdə ikitərəfli faydalı əməkdaşlığın gücləndirilməsində göstərəcək. Bu eyni zamanda həm Cənubi Qafqaz, həm də beynəlxalq müstəvidə çoxtərəfli əməkdaşlıq platformasının formalaşmasına da töhfə verə bilər. Nəzərə alsaq ki, ABŞ şirkətləri innovasiya və texnologiya sahələrində dünyada liderdirlər, o zaman Zəngəzur dəhlizinin açılmasından sonra ölkəmizdə həmin istiqamətlərə yeni sərmayələrin axınını da müşahidə edə bilərik. Bütün bu proseslərin baş verəcəyinə əminlik yaradan ən vacib amil odur ki, hər iki lider güclü siyasi iradəyə malikdir və münasibətlərin hərtərəfli şəkildə dərinləşməsində maraqlıdırlar.

**“Şərq qapısı”**

## Səlahiyyətli nümayəndə "Cahan Sənaye Kompleksi" MMC-nin fəaliyyəti ilə tanış olub



Fevralın 4-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində olub, müəssisələrin fəaliyyəti və perspektiv inkişaf planları ilə tanış olub.

"Cahan Holding"in qurucusu, Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov müəssisələrin mövcud istehsal gücü, tətbiq edilən müasir texnoloji avadanlıqlar, istehsal olunan məhsullar, həyata keçirilən marketinq tədbirləri və xarici bazarlara ixrac imkanları barədə ətraflı məlumat verib.

Səlahiyyətli nümayəndə Ceyhun Cəlilov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü iqtisadi siyasət nəticəsində Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafında keyfiyyətcə yeni mərhələ başlayıb.

Ceyhun Cəlilov qeyd edib ki, dövlət-özəl sektor tərəfdaşlığının gücləndirilməsi, biznes və investisiya mühitinin davamlı şəkildə yaxşılaşdırılması, sahibkarlar və investorlar üçün hüquqi bazanın daha əlverişli hala gətirilməsi bu siyasətin əsas istiqamətlərindəndir. Qeyd olunub ki, son dövrlərdə iş adamlarının maliyyə resurslarına çıxışının genişləndirilməsi, güzəştli kredit mexanizmlərinin tətbiqi, istehsal və ixracyönümlü layihələrə dövlət dəstəyi regionun iqtisadi potensialının daha səmərəli reallaşdırılmasına xidmət edir.

1 yanvar 2026-cı ildən etibarən Naxçıvan Muxtar Respublikasında vergi, gömrük və sosial sığorta güzəştlərinin qüvvəyə minməsi isə bu dəstək mexanizmlərinin ən mühüm tərkib hissələrindən biridir. Bura mənfəət (gəlir), əmlak, torpaq, ƏDV (sənaye və texnologiya parklarının, sənaye məhəllələrinin rezidentləri və investisiya təşviqi sənədi alan şəxslərin idxal əməliyyatlarına münasibətdə) və sadələşdirilmiş vergi üzrə güzəştlər daxildir. Bu qərar dövlət başçısının Naxçıvan Muxtar Respublikasına göstərdiyi diqqət və qayğının növbəti bariz nümunəsi olmaqla sahibkarlara öz bizneslərini genişləndirmək, yeni layihələr reallaşdırmaq və regionun iqtisadi inkişafına daha böyük töhfə vermək üçün geniş imkanlar yaradır.







Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev bildirib ki, innovativ texnologiyaların tətbiqinə xüsusi önəm verən "Cahan Sənaye Kompleksi" MMC uğurlu fəaliyyəti ilə muxtar respublika iqtisadiyyatının inkişafına töhfə verir.

Qeyd edilib ki, ötən dövrdə Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqına daxil olan müəssisələrin layihələrinin maliyyələşdirilməsi üçün, ümumilikdə, 16,5 milyon manat məbləğində güzəştli kredit vəsaiti ayrılıb.

Vüqar Abbasov bildirib ki, ayrılmış kredit vəsaitləri sənaye, tikinti və istehsal sahələrini əhatə edən layihələrin icrasına yönəldilib. Bu vəsaitlər hesabına 310 iş yeri yaradılıb. Ölkə başçısının sahibkarlığa qayğısı ilə vergi, gömrük və sosial sığorta güzəştlərinin qüvvəyə minməsi, həmçinin göstərilən dəstək nəticəsində 2026-cı il ərzində daha 340-a yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Sonda Ceyhun Cəlilov muxtar respublikada fəaliyyət göstərən sahibkarlara müxtəlif alətlər vasitəsilə dəstək göstərildiyini, bu dəstək tədbirlərinin bundan sonra da davam etdiriləcəyini bildirib və "Cahan Şirkətlər Qrupu" MMC-yə gələcək fəaliyyətində uğurlar arzulayıb.

## Gənclər və idman naziri Naxçıvana səfər edib



Fevralın 6-da Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, gənclər və idman naziri Fərid Qayıbov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.



## Naxçıvanda "Azərbaycan gəncliyi: Ulu Öndər ideyalarından müasir inkişaf mərhələsinədək" adlı tədbir keçirilib





Fevralın 6-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birgə təşkilatçılığı ilə Naxçıvanda "Azərbaycan gəncliyi: Ulu Öndər ideyalarından müasir inkişaf mərhələsinədək" adlı tədbir keçirilib.

Əvvəlcə müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra "Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı videoçarx təqdim edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov çıxışında Azərbaycan gəncliyinə göstərilən yüksək dövlət qayğısından, bu sahədə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətdən bəhs edib. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 30 il əvvəl təsis edilən Gənclər Günü gəncliyə verilən dəyərin bariz nümunəsidir və məhz bu strateji baxış nəticəsində gənclərin bilikli, vətənpərvər və milli-mənəvi dəyərlərə sadiq ruhda formalaşması dövlət siyasətinin prioritetlərindən birinə çevrilib. Səlahiyyətli nümayəndə bu siyasətin real nəticələrini şəxsi təcrübəsində gördüyünü diqqətə çatdıraraq bildirib ki, özü də "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil almaq imkanı qazanıb. Vurğulanıb ki, dövlət dəstəyi ilə xaricdə təhsil alan gənclər bu gün Azərbaycan cəmiyyətinin müxtəlif sahələrində uğurla fəaliyyət göstərərək ölkənin intellektual və insan kapitalının güclənməsinə xidmət edirlər.






Ceyhun Cəlilov Prezident cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsi ilə reallaşmaqda olan Zəngəzur dəhlizini regionun gələcək iqtisadi mənzərəsini müəyyən edən strateji təşəbbüs kimi dəyərləndirib. Bildirilib ki, son illər Naxçıvan Muxtar Respublikasında əldə olunan mühüm nailiyyətlərin əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" dayanır. Proqramda elmin və təhsilin modernləşdirilməsi, tədqiqat mühitinin gücləndirilməsi, innovativ yanaşmaların tətbiqi və gənc mütəxəssis hazırlığının keyfiyyətinin artırılması strateji hədəflər kimi müəyyən olunub. Bu siyasət gənclər üçün yeni bilik, yaradıcılıq və peşəkar inkişaf imkanları yaradır.

Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov çıxışında Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət gənclər siyasətinin uğurla davam etdirildiyini vurğulayıb. Nazir bildirib ki, ölkə üzrə təşkil olunan Gənclər Həftəsi çərçivəsində keçirilən silsilə tədbirlər gənclərin fəallığının artırılmasına və onların təşəbbüslərinin dəstəklənməsinə xidmət edir. Qeyd olunub ki, bu tədbirlər sırasında Xankəndi şəhərində təşkil edilən Azərbaycan Gənclərinin XI Forumu xüsusi əhəmiyyət daşıyır və Gənclər Həftəsi çərçivəsində həyata keçirilən tədbirlərin Naxçıvan Muxtar Respublikasında davam etdirilməsi dövlətin gənclərə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Nazir Azərbaycanın gələcəyinin daha möhkəm təməllər üzərində qurulduğunu vurğulayıb, Gənclər Həftəsi çərçivəsində təşkil olunan tədbirlərin qarşıdakı dövrdə də ölkənin bütün bölgələrini əhatə etməklə davam etdiriləcəyini qeyd edib.

ardı 6-cı səhifədə



Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, Azərbaycan gəncliyi ölkənin ən böyük strateji potensialıdır və bu potensialın formalaşmasında Ulu Öndər Heydər Əliyevin gənclərə dair uzaqgörən siyasəti əsas rol oynayıb. Vurğulanıb ki, Ümummilli Liderin rəhbərliyi dövründə təhsilli, ixtisaslı gənclərin yetişdirilməsi, xüsusilə milli hərbçi kadrların hazırlanması ölkəmiz müstəqillik qazandıqdan sonra da milli kadr təminatında əsas amil olub.

Bəxtiyar Məmmədov Ulu Öndərin 1992-ci ildə Türkiyə Respublikasına rəsmi səfəri zamanı imzaladığı əməkdaşlıq protokolu muxtar respublika ilə Türkiyə ara-



sında əlaqələrin inkişafına xidmət etməklə yanaşı, hər il 100 naxçıvanlı gəncin Türkiyədə təhsil almasına imkan yaratdığını diqqətə çatdırıb. Vurğulanıb ki, bu istiqamətdə atılan addımlar bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət gənclər siyasəti nəticəsində gənclər ictimai-siyasi həyatın fəal iştirakçısına çevrilib. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan tarixi Zəfər isə onların milli ruhunu və vətənpərvərliyini nümayiş etdirdi. Eyni zamanda Naxçıvanda gənclərin inkişafı üçün geniş imkanlar yaradıldığı və parlamentlə gənclər arasında dialoqun gücləndirildiyi qeyd olunub.

Gənclərin ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında artan rolundan bəhs edən Azərbaycan Respublikası Milli Məclisinin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov çıxışında Azərbaycan gəncliyinin qədim dövlətçilik ənənələrinə sadiq, milli-mənəvi dəyərlərə bağlı və müasir çağırışlara cavab verən əsas aparıcı qüvvə kimi formalaşdığını diqqətə çatdırıb. Bildirilib ki, ölkəmizdə gənclərin hərtərəfli inkişafı üçün yaradılan əlverişli mühit, həyata keçirilən təşviq və reytinq mexanizmləri onların potensialının üzə çıxarılmasına, gələcək uğurlarına mühüm töhfə verir.

Komitə sədri qeyd edib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasətinin ən parlaq nəticələrindən biri 2020-ci ildə Azərbaycan gəncliyinin üzərinə düşən tarixi missiyanı layiqincə yerinə yetirməsidir. Vətən müharibəsi dövründə gənclər Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşərək qəhrəmanlıq və fədakarlıq nümunəsi göstərib, şəhid və qazilərimiz isə xalqımızın yaddaşında əbədi yer tutublar.

Sonra Naxçıvan Muxtar Respublikasında dövlət gənclər siya-




sətinin həyata keçirilməsində fəal iştirakına görə bir qrup gənc mükafatlandırılıb.

Tədbirin davamında "Azərbaycan Gəncləri Günü dövlət gənclər siyasətinin nailiyyətləridir" və "Azərbaycan gənclər və idman siyasəti: dünən, bu gün və gələcəyə baxış" mövzularında panel müzakirələr keçirilib.

Sonda xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, qonaqlar mədəni tədbirlər çərçivəsində Naxçıvan şəhərinin bir sıra tarixi, mədəni və gəzməli-görməli yerlərində də olublar.

## "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Konstitusiya Qanunu layihəsi II səsvermədə qəbul edildi





Fevralın 2-də Milli Məclisin yaz sessiyasında ilk plenar iclası keçirilib. İclasın gündəliyində yer alan "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu layihəsi II səsvermədə qəbul edilib.

Qeyd edək ki, müzakirələrdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Bakı şəhərində Naxçıvan Muxtar Respublikası daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Rahib Kərimov da iştirak ediblər.

## Ali Məclisdə Milli Məclisin nümayəndə heyəti ilə görüş olub



Fevralın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov Azərbaycan Respublikası Milli Məclisinin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi strateji xəttə uyğun olaraq gənclərlə iş və idman sahəsində əldə olunan nailiyyətlər, gənclərə göstərilən xüsusi diqqət və qayğıdan bəhs olunub. Yaradılan şəraitdən istifadə edərək Azərbaycan gənclərinin ictimai-siyasi həyatda, mədəniyyət, sosial, humanitar sahələrdə fəal iştirak edərək ölkəmizi beynəlxalq arenada layiqincə təmsil etməsindən danışılıb.




Həmçinin görüş zamanı komitələr arasında əməkdaşlığın genişləndirilməsi, eləcə də birgə layihələrin həyata keçirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

## Ümummilli Lider Heydər Əliyevin abidəsi və Heydər Əliyev Muzeyi ziyarət olunub



Fevralın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Arzu Abdullayev, "Azərbaycan gəncliyi: Ulu Öndər ideyalarından müasir inkişaf mərhələsinədək" adlı tədbirdə iştirak etmək üçün Naxçıvana səfər edən Azərbaycan Respublikası Milli Məclisinin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılovun rəhbərlik etdiyi nümayəndə heyəti, Ali Məclisin deputatları və Ali Məclis Aparatının əməkdaşları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə tər güllər düzüblər.

Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub. Muzeydə Ulu Öndərin zəngin dövlətçilik irsi, çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən mənalı ömrünün Naxçıvan mərhələsi haqqında ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, burada Ümummilli Liderin ailəsinə, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid sənəd və materiallar, imzaladığı məktub, qərar, sərəncam və müqavilələrin surətləri nümayiş olunur.



## Ali Məclisin 2026-cı il yaz sessiyasının ilk plenar iclası keçirilib

Fevralın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının ilk plenar iclası keçirilib.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra yaz sessiyasının başlanması münasibətilə deputatları təbrik edən Ali Məclis sədrinin birinci müavini bildirib ki, bu gün, həmçinin ölkəmizdə Gənclər Günüdür. Gənclərə həmişə böyük qayğı ilə yanaşan





Ümummilli Lider Heydər Əliyevin imzaladığı müvafiq Sərəncamla hər il fevralın 2-si ölkəmizdə "Azərbaycan Gəncləri Günü" kimi qeyd edilir. Bu gün dövlətimizin gənclər siyasəti möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələyə daxil olmuş, gənclərimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək Azərbaycanın daha da güclənməsinə, inkişaf etməsinə töhfə verən aparıcı qüvvəyə çevrilmişdir.

"Ulu Öndərin gənclərə etimadının ən böyük təsdiqi 44 günlük Vətən müharibəsində Azərbaycan gəncliyinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə üzərinə düşən tarixi missiyanı yerinə yetirməsi oldu", – deyən Bəxtiyar Məmmədov Azərbaycan gənclərini təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

İclasda deputatlardan Sevinc Həsənova və Mövlan Məmmədov çıxış edərək ölkəmizdə gənclər siyasəti istiqamətində ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mühüm tədbirlərdən, gənclərin sağlam, savadlı, vətənpərvər, milli ruhlu vətəndaşlar kimi yetişməsi üçün onlara yaradılmış şəraitdən danışıblar.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov vurğulayıb ki, bugünkü iclasın gündəliyində 3 məsələ nəzərdə tutulsa da, əlavə olaraq 2 məsələ onun tərəfindən gündəliyə daxil edilib və

ardı 7-ci səhifədə

deputatlara təqdim olunub.

Gündəlik təsdiq olunduqdan sonra “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının qanunvericilik işləri planı haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.

İclasın gündəliyində duran ikinci və üçüncü məsələlərlə bağlı Ali Məclis sədrinin birinci müavini qeyd edib ki, Daxili Nizamnaməyə əsasən Ali Məclisin yaz sessiyasının birinci iclasında Hesablayıcı və İntizam komissiyaları yaradılmalıdır. Həmin komissiyalar Ali Məclisin deputatları sırasından 1 il müddətinə 5 üzvdən ibarət tərkibdə seçilir.

Müzakirə olunan məsələlərlə bağlı hazırlanmış “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının yaradılması haqqında” və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarları oxunduqdan sonra ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran növbəti məsələ – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitə sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi ilə bağlı Bəxtiyar Məmmədov bildirib ki, komitələrin öz funksiyalarının həyata keçirilməsi istiqamətində təkmilləşdirmə aparılması məqsədilə komitələrin tərkibinin yenidən formalaşdırılması zərurəti yaranmışdır.

Komitələrin tərkibi ilə bağlı qərar layihəsi oxunduqdan sonra “Naxçıvan Muxtar Respublikası Ali Məclisi komitələrinin sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.

İclasda müzakirə olunan sonuncu məsələ – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il 16 may tarixli 24-VI QR nömrəli Qərarında dəyişiklik edilməsi ilə bağlı qeyd olunub ki, “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2024-cü il 25 oktyabr tarixli 2-VII QN nömrəli Qanunu ilə artıq deputatların aylıq vəzifə maaşları və vəzifə maaşına əlavələr qanuna daxil edildiyindən müvafiq qərarda dəyişiklik zərurəti yaranmışdır.

Müzakirə olunan məsələ ilə əlaqədar qərar layihəsi oxunub, səsə qoyularaq qəbul edilib.

Bununla da Ali Məclisin yaz sessiyasının ilk plenar iclası başa çatıb.

## Ali Məclisin İntizam komissiyasının ilk iclası keçirilib



Fevralın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının birinci iclasında yaradılan İntizam komissiyasının ilk iclası keçirilib.

İclasa sədrlik edən komissiyanın üzvü Gülşad Rüstəmova bildirib ki, komissiyanın ilk iclasının gündəliyinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il üçün İntizam komissiyası sədrinin, sədr müavininin və katibinin seçilməsi məsələsi daxildir.

Qeyd olunub ki, Ali Məclisin 2 fevral 2026-cı il tarixli Qərarı ilə İntizam komissiyası yaradılıb və komissiyanın 5 üzvdən ibarət tərkibi təsdiq edilib.

Sonra Gülşad Rüstəmova İntizam komissiyasının sədri vəzifəsinə komissiyanın üzvü Məmməd Məmmədovu təklif edib.

Gündəlikdə duran məsələ ilə əlaqədar qərar səsə qoyulub, Məmməd Məmmədov İntizam komissiyasının sədri seçilib.

İclasda, həmçinin İntizam komissiyasının sədr müavini vəzifəsinə komissiyanın üzvü Vüsal Məmmədzadənin, katibi vəzifəsinə isə komissiyanın üzvü Nuray Əliyevanın namizədlikləri irəli sürülüb.

Məsələ ilə əlaqədar qərar səsə qoyularaq qəbul olunub.

Bununla da iclas öz işini başa çatdırıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Fərid Qayıbov: “Sağlam məhəllə” layihəsinin icrasına ilk olaraq Naxçıvandan başlanır



“Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən Azərbaycanın şəhər və rayonlarında “Sağlam məhəllə” layihəsinin icrasına başlanılıb. Layihənin ilk mərhələsi bu ay Naxçıvan Muxtar Respublikasında start götürüb. Hazırda layihə muxtar respublikanın üç müxtəlif rayonunda – Şahbuz, Culfa və Babək rayonlarında həyata keçirilir və artıq açılış mərasimləri təşkil olunub”.

Bu sözləri “Şərq qapısı”na müsahibəsində Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov bildirib.

Nazir deyib: “İlk növbədə, bu təşəbbüsün xeyirli olmasını arzulayıram. Sevindirici haldır ki, uşaqlar bu layihəyə böyük maraq göstərir və idman meydançalarından fəal şəkildə istifadə edirlər. Layihənin icrasında bizə dəstək olan idmançılara və müxtəlif idman növlərinin nümayəndələrinə xüsusi təşəkkürümü bildirirəm. Bu əsasən, idmanın kütləviliyinə yönəlmiş bir layihədir. Təbii ki, əhalinin, xüsusilə də uşaqların bu təşəbbüsə böyük sevinc və maraqla yanaşdığını müşahidə edirik. Artıq uşaqlar asudə vaxtlarını sağlam və faydalı şəkildə keçirmək üçün bu məhəllə idman məkanlarından istifadə edirlər”.

“Qarşıdakı illərdə layihənin miqyasının genişləndirilməsi nəzərdə tutulur. Qeyd etdiyim kimi, bu cür layihələr gələcəkdə Azərbaycanın digər bölgələrində də həyata keçiriləcək. İlk mərhələ Naxçıvanda başlayıb və bu il ərzində başqa rayonları da əhatə edəcək”, – deyə Fərid Qayıbov əlavə edib.

## Naxçıvan gənclərinin bu cür müzakirələrdə aktiv iştirakı xüsusi əhəmiyyət daşıyır



***Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İSMAYILOV:*** – “Hesab edirik ki, bölgələrimizdə bu tip tədbirlərin keçirilməsi olduqca vacibdir. Çünki bölgələrdə yaşayan, oxuyan və çalışan gənclərin bu cür müzakirələrdə aktiv iştirakı xüsusi əhəmiyyət daşıyır. Gənclər siyasəti Azərbaycanda həyata keçirilən uğurlu dövlət siyasətinin əsas istiqamətlərindən biridir və gənclər hər zaman dövlətin qayğısı və diqqəti ilə əhatə olunur. Bu gün burada müxtəlif mövzular üzrə gənclərlə fikir mübadiləsi aparacağıq, onları dinləyəcək, suallarını cavablandıracağıq. Düşünürük ki, Naxçıvandan başlayan bu model gələcəkdə ölkəmizin digər bölgələrinə də yayılacaq. Azərbaycanda artıq birinci Gənclər Forumunun keçirilməsindən bu günə qədər artıq 30 il vaxt keçmişdir”.

Şahin İsmayılov qeyd edib ki, əldə olunmuş nəticələrin təhlili, mövcud vəziyyətin qiymətləndirilməsi və gələcəklə bağlı gənclərin fikirlərinin öyrənilməsi olduqca vacibdir. Bu tədbir bütün bu məqamları özündə ehtiva edir.

“İnanırıq ki, bu gün keçirilən müzakirələr nəticəsində uğurlu qeydlər, real nəticələr əldə ediləcək və ən əsası, gənclərimizi maraqlandıran suallar cavablandırılacaq, səmərəli fikir mübadiləsi aparılacaqdır”, – deyə Milli Məclisin Gənclər və idman komitəsinin sədri əlavə edib.

## Naxçıvanda keçirilən tədbir gənclərin inkişaf yolunda dəyərli bir addım kimi yadda qaldı

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əziz QASIMOV:*** – Naxçıvanda keçirilən “Azərbaycan gəncliyi: Ulu Öndər ideyalarından müasir inkişaf mərhələsinədək” adlı tədbir xüsusi əhəmiyyət daşıyır. Belə tədbirlər gənclərin milli ideologiya, dövlətçilik ənənələri və müasir inkişaf strategiyaları barədə biliklərini dərinləşdirməklə yanaşı, onları fəal vətəndaş mövqeyinə təşviq edir.

Tədbir çərçivəsində Ulu Öndərin gənclərə yönəlmiş siyasi xəttinin bu gün də aktuallığını qoruması, bu ideyaların müasir dövrün çağırışları ilə uzlaşdırılması xüsusi vurğulandı. Gənclərin intellektual potensialının, liderlik bacarıqlarının və təşəbbüskarlığının dəstəklənməsi ölkənin dayanıqlı inkişafı üçün



əsas amillərdən biri kimi olması qeyd olundu.

Bu kimi tədbirlər gənclərin fikirlərini bölüşməsi, yeni baxışlar qazanması və gələcək hədəflərini daha aydın müəyyən etməsi baxımından mühüm əhəmiyyət daşıyır. Naxçıvanda keçirilən bugünkü tədbir də məhz bu baxımdan gənclərin inkişaf yolunda dəyərli bir addım kimi yadda qaldı.

## Naxçıvanın gənc nəsli üçün yeni perspektivlər açılır

***Suraxanı Gənclər Evinin direktoru Cəbi QULİYEV*** : – Naxçıvanda Gənclər Həftəsi münasibətilə keçirilən “Azərbaycan gəncliyi: Ulu Öndər ideyalarından müasir inkişaf mərhələsinədək” tədbiri və “Gənc Fest” region gənclərinin intellektual potensialının nümayişi baxımından mühüm əhəmiyyət daşıyır. Bu cür tədbirlərin keçirilməsi Naxçıvan gənclərinin innovativ təşəbbüslərini dəstəkləmək və onları davamlı inkişaf proseslərinə daha fəal cəlb etmək məqsədi daşıyır. Tədbir çərçivəsində gənclərin sosial, iqtisadi və ekoloji sahələr üzrə mövcud çağırışlar və bu çağırışlara Naxçıvan gənclərinin verdiyi töhfələr müzakirə



olunacaq.

Naxçıvan Muxtar Respublikasında yaşayan gənclər hər zaman Dövlət proqramları və inkişaf strategiyalarında fəal iştirakları ilə seçiliblər. Forum, həmçinin onların idarəetmə, liderlik və layihələrin icrası sahəsində bilik və bacarıqlarının artırılmasına xidmət edir. Burada keçirilən müzakirələr və təqdimatlar gənclərin regional inkişafda rolunun daha da gücləndirilməsinə imkan yaradır. Naxçıvanlı gənclərin yenilikçi baxışları, yüksək məsuliyyət hissi və təhsil sahəsində əldə etdikləri nailiyyətlər regionun gələcək inkişafının əsas dayaqlarındandır. Bu cür tədbirlərin nəticələrinin gənclərin yeni təşəbbüslərinə və uzunmüddətli əməkdaşlıqlarına töhfə verəcəyinə inanırıq. Bu kimi tədbirlər Naxçıvanın gənc nəsli üçün yeni perspektivlər açır və onların ölkənin ümumi inkişaf strategiyasına inteqrasiyasını daha da sürətləndirir.



## “Şərq qapısı” qəzetinin əməkdaşı Milli Məclisin mükafatına layiq görülüb

“Azərbaycan gəncliyi: Ulu Öndər ideyalarından müasir inkişaf mərhələsinədək” adlı tədbir çərçivəsində “Şərq qapısı” qəzetinin əməkdaşı Bülbül Rövşənqızı mükafata layiq görülüb.

Azərbaycan Respublikası Milli Məclisinin Gənclər və idman komitəsi tərəfindən Naxçıvan Muxtar Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsində fəal iştirakına görə Quliyeva Bülbül Rövşən qızı təltif edilib.

# Azərbaycan dövlətçiliyinin əməl və yaddaş mərkəzi

# Naxçıvan



## Naxçıvanın xilaskarı Heydər Əliyev

Ulu Tanrı bu diyara dözüm, qətiyyət, səbir verdi, Naxçıvanın və naxçıvanlıların ən ağır günündə xalqın dahi oğlunu xilaskar kimi göndərdi. Dahi rəhbərin Naxçıvanda olması camaatı yurd-yuvalarından didərgin düşməyə qoymadı. Camaat güllə yağışı altında qalsa da, evini tərk etmirdi; düşmən önündə dayanır, yurdlarını qoruyurdular. O vaxtlar hər kəs – yaşından sənətindən, vəziyyətindən, cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq, Vətənə övladlıq borcunu yerinə yetirməyə çalışırdı. Onlar ölümün gözünə dik baxır və öz canları bahasına Vətən torpağını qoruyurdular. Düşmənin atdığı "qradlar", "alazanlar" torpağımıza yağış kimi yağsa da, doğma yurdunu, isti ev-eşiyini heç kim tərk etmədi. Ulu Öndərimiz Heydər Əliyevin ətrafında birləşən əhalinin sıx birliyi, Vətən təəssübkeşliyi, yurda bağlılığı yurdumuzu qorudu.1990-1993-cü illərdə muxtar respublika əhalisi mübarizlik, şücaət göstərdi. Uzaqgörən siyasətçi Heydər Əliyevin Sədərəyin düşməndən qorunmasında böyük tarixi xidmətləri, əvəzolunmaz rolu oldu. Naxçıvanın hər yerindən Vətənin müdafiəsinə üz tutanların təşkilatlanmasını uğurla həyata keçirən Ümummilli Liderin həmin illərdə bir neçə dəfə Sədərək rayonuna gəlişi hər kəsi ruhlandırdı, sabaha inamını artırdı. Ulu Öndər Heydər Əliyev 1990-cı il Sədərək döyüşlərinin Naxçıvanın muxtariyyət statusunun qorunmasındakı rolunu da xüsusi vurğulayıb: ***"Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı".***

## Sabitlik olan yerdə...

Zaman keçdi... 1990-cı illərin əvvəlində səksəkəli günlərini yaşayan Naxçıvan Ulu Öndər Naxçıvana qayıdandan sonra təhlükəsiz, nizam-intizamlı regiona çevrildi. Bu gün muxtar respublikanın sərhədləri düşməndən necə qorunursa, hüquq-mühafizə orqanları da müstəqil dövlətimizin qanunlarının keşiyində o cür ayıq-sayıq dayanır. Reallıq budur ki, bu gün burada ictimai-siyasi sabitlik hökm sürür, sosial-iqtisadi inkişaf günbəgün artır. Hərtərəfli biliyə malik gənc nəslin yetişdirilməsinə, onların asudə vaxtlarının səmərəli təşkilinə hər cür şərait yaradılıb. Naxçıvanlı gənclərin səsi ölkəmizlə yanaşı, dünyanın bir çox ali təhsil ocaqlarından, elmi-tədqiqat institutlarından gəlir, beynəlxalq yarışlarda bayrağımızı dalğalandıran, himnimizi səsləndirən qürurverici gəncliyə çevriliblər. Hər kəs gücü çatdığı, bacardığı işin, peşənin dalınca gedir, Vətənin gələcəyinə öz töhfəsini verməyə çalışır.

İndi təkcə Naxçıvan şəhərinin yox, bütün rayon və kəndlərin müasir inzibati binaları, abad məhəllələri, yaşayış massivləri, yaşıl libasa, gül-çiçəyə bürünən park və xiyabanları var. Bir vaxtlar yolu-izi olmayan müasir dağ kəndlərinə geniş abad yollar salınıb, dünən qonşu kəndlə əlaqəsi olmayan, dağ, sərhəd kəndləri indi dünyanın istənilən yeri ilə rabitə əlaqəsi yaradır. İllər öncə çəkilən əziyyətlərin, keçmişin acı bir xatirəyə çevrilməsinin əsas səbəblərindən biri də mavi yanacaq, elektriklə, içməli su ilə təminatla bağlı problemlərin öz həllini tapmasıdır. Çətin günlərdə yanacaq olmaması səbəbindən payız aylarında balta səsləri gələn bağlar yenidən dirçəldilib, əkin sahələrində ən müasir texnikaların səsləri eşidilir.

## Prezident İlham ƏLİYEV:

***"Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir."***

## Zəngəzur dəhlizi, AİZ, "yaşıl enerji" – işıqlı gələcəyə doğru açılan yollar

Ölkəmizin bütün bölgələri kimi, Naxçıvanın da inkişafı diqqətdə saxlanılır. Görkəmli dövlət xadimi Heydər Əliyevin əsasını qoyduğu siyasi xətti dövrün reallıqlarına uyğun davam etdirən Prezident İlham Əliyev 2004-cü ildən ötən müddət ərzində muxtar respublikaya səfərləri zamanı elm, təhsil və mədəniyyət, idman, səhiyyə və sosial təminat, energetika, meliorasiya, yol tikintisi, sahibkarlıq, eləcə də hərbi quruculuq sahələrini əhatə edən 150-dən çox obyektin açılışında, bölgə üçün mühüm əhəmiyyət kəsb edən İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasimində iştirak edib, Naxçıvan Muxtar Respublikasının 80, 85, 90 və 100 illik yubileyləri keçirilib.

Vaxtilə işıqsız, ümumiyyətlə, enerjisiz qalan Naxçıvan bu gün enerji ixracatçısına çevrilib, "yaşıl enerji zonası" statusuna layiq görülüb. Azərbaycan Prezidentinin 2023-cü il 30 dekabr tarixli "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı ilə muxtar respublikanın 100 illiyi ilə bağlı silsilə tədbirlər keçirilib, yubiley geniş şəkildə qeyd olunub. Sərəncamda deyilir: *"Naxçıvan Muxtar Respublikası bu gün Dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika "yaşıl enerji zonası" elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir".* Bu fikirlərdən yola çıxaraq qeyd edə bilərik ki, ölkə başçısının Naxçıvanla da bağlı böyük planları artıq həyata keçirilməyə başlanılıb. Belə ki, 2022-ci ilin sonlarından etibarən Naxçıvan Muxtar Respublikasının idarəetmə strukturunda aparılan islahatlar çərçivəsində idarəçiliyin bütün sahələrində şəffaflaşma prosesi aparılıb, ölkə sisteminə inteqrasiya uğurla reallaşdırılıb.

Dövlətimizin başçısı 2023-cü il iyunun 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncam imzalayaraq Naxçıvanın tərəqqisi naminə yeni yol xəritəsini müəyyənləşdirib. Dövlət Proqramının icrası ilə Naxçıvan azad iqtisadi zonaya çeviriləcək. Artıq burada fəaliyyət göstərən, Naxçıvan rezidenti olan sahibkarlar üçün 10 il müddətində vergi və gömrük güzəştləri, daşınma və digər sahələrdə müvafiq stimullaşdırma tətbiq edilir. Naxçıvanda Azad İqtisadi Zonanın (AİZ) yaradılması muxtar respublika iqtisadiyyatı üçün böyük perspektivlər vəd edir. Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanın da "yaşıl enerji zonası" elan edilməsi muxtar respublikanın potensial imkanlarından maksimum yararlanmaqla sosial-iqtisadi inkişafı üçün qarşıda mühüm vəzifələr qoyub. Burada günəş və külək elektrik stansiyalarının inşası istiqamətində böyük layihələrin icrası planlaşdırılıb. Eyni zamanda 2023-cü il sentyabrın 25-də Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə təməli qoyulan İğdır-Naxçıvan qaz boru xəttinin də tikintisi uğurla başa çatıb, kəmərin yaxın gələcəkdə istifadəyə verilməsi nəzərdə tutulur. Həmçinin Vətən müharibəsindən sonra imzalanan üçtərəfli bəyanata əsasən yeni reallıqlar fonunda Zəngəzur dəhlizi məsələsi gündəmdədir və Naxçıvanın ölkəmizin digər ərazisi ilə nəqliyyat əlaqələrinin bərpası onun iqtisadi cəhətdən güclənməsinə, əhalinin rifahının yüksəlməsinə təkan verəcək. Artıq 1 aydır ki, Zəngəzur dəhlizinin Naxçıvan hissəsində Ordubad stansiyasının yenidən qurulmasına başlanılıb.

102 yaşlı Naxçıvan Muxtar Respublikası Ümummilli Lider Heydər Əliyevin zəhmətinin bəhrəsi, ideyaları işığında, Prezident İlham Əliyevin diqqət və qayğısı ilə inkişaf edir, gözəlləşir. İnanırıq ki, işgüzarlıqları, prinsipiallıqları ilə birlikdə Vətən sevgisinin misilsiz nümunəsini göstərən naxçıvanlılar həmişə olduğu kimi, bundan sonra da böyük nailiyyətlərə imza atacaqlar.

## Ulu Öndər Heydər ƏLİYEV:

***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq."***

## Qəhrəman, dönməz iradəli, vətənpərvər naxçıvanlılar

Naxçıvan: qədim oğuz yurdu, hər küncündən tarix ətri gələn ulu diyar. Mərd, dözümlü, dəyanətli torpaq. Hər ovuc torpağı şəhid qanı ilə yoğrulub Vətən olan qədim yurd. Tarixin o üzündən bəri boylanan, inkişaf edib müasirləşdikcə qədimliyini, ululuğunu qoruyub saxlayan Vətən torpağı. Tarixi mədəniyyətinə, mədəniyyəti ədəbiyyatına arxa olub milli dəyərlərimizi, adət-ənənələrimizi qərinələrin saxlancına ərməğan edən doğma Naxçıvan. Tarixindən əzəmət, mərdlik, mədəniyyətindən zəhmətkeşlik, ədəbiyyatından cəfakeşlik alan insanların qabarlı əllərində dünyanın bəzəyinə çevrilən Nəqşicahan...

Azərbaycan dövlətçiliyinin əməl və yaddaş mərkəzi, tarixin bütün dövrlərində mərdliyi və vətənsevərliyi ilə çətin sınaqlardan dəfələrlə üzüağ, alnıaçıq çıxan Vətən torpağının, dünəni mərdliklə qəhrəmanlıqla dolu 102 yaşlı qoca diyarın çox da uzaq olmayan keçmişinə nəzər salanda görürük ki, Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı illərdə məkrli qonşusu ermənilərin ərazi iddiaları ilə üz-üzə gələn naxçıvanlılar öz qəhrəmanlıq salnaməsində daha bir səhifə açıb. Həmin vaxtlar Azərbaycan Xalq Cümhuriyyəti düşdüyü çətin vəziyyətlə əlaqədar olaraq Naxçıvana lazım olan köməyi göstərə bilmirdi. 1918-ci il mayın 29-da heç bir beynəlxalq hüquqa, ədalətə sığmayan şəkildə İrəvan şəhərinin paytaxt kimi Ermənistana verilməsindən sonra bölgədə vəziyyət olduqca mürəkkəbləşmişdi, ermənilərin ölkəmizə qarşı ərazi iddiaları artırdı.

Ermənilər SSRİ-nin himayədarlığı ilə 1918-1920-ci illərdə Azərbaycanın yaxın ərazilərini Ermənistana birləşdirmək üçün açıq silahlı mübarizə aparırdı. Həmin vaxt Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanı siyasi-diplomatik cəhətdən müdafiə etməyə çalışsa da, faktiki şəkildə hərbi dəstək verə bilmirdi. Bu da vəziyyətin olduqca gərginləşməsinə, Naxçıvanın işğalına rəvac verirdi. Lakin Naxçıvan əhalisinin qəhrəmanlığı, dönməz iradəsi hadisələrin gedişatında mühüm rol oynadı. Naxçıvan əhalisi, yerli ziyalılar erməni daşnaklarına qarşı inadla mübarizə apardı və mənfur düşmən öz arzusunu reallaşdıra bilmədi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli parlamentdəki çıxışında naxçıvanlıların qəhrəmanlığı haqqında deyirdi: *"İgid naxçıvanlılar, şərurlular bütün çətinliklərə özləri qalib gəldilər, onlar həyatlarını, ailələrinin şərəfini, var-dövlətlərini riskə qoyaraq doğma torpağa, Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra naxçıvanlıların qanuni hüquqlarını danmayacaqlar".*

Yaranan siyasi vəziyyət Naxçıvana muxtariyyət statusunun verilməsini tarixi zərurətə çevirdi. Bu həm də Cənubi Qafqazı erməniləşdirmək siyasətinin qarşısını qismən aldı. Tarixi mənbələrdən də aydın olur ki, Naxçıvana muxtariyyət statusu 1921-ci ildə verilsə də, Naxçıvan Muxtar Respublikasının yaradılmasına qədər üç il vaxt lazım oldu. Hətta 1923-cü ildə Naxçıvanın muxtar respublika statusu azaldılaraq muxtar diyara çevrildi. Lakin muxtar diyar dövrü uzun sürmədi. 1923-cü ilin dekabrında Naxçıvan diyarı Naxçıvan Respublikasına çevrildi. 1924-cü il fevralın 9-da Azərbaycan MİK Naxçıvan MSSR-in yaradılması haqqında Qərar verdi. Ümummilli Lider Heydər Əliyev həmin tarixi hadisəni çətin məqamda əldə olunmuş mühüm nailiyyət kimi dəyərləndirib: ***"Naxçıvanın muxtariyyəti mühüm hadisədir. Bu çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Belə ağır şəraitdə Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri də odur ki, Naxçıvana o vaxt muxtariyyət hüququ veriblər".***

Sovetlər ittifaqının son illəri naxçıvanlıların yaddaşına çətinliklər, məhrumiyyətlər, qanlı qırğınlar dövrü kimi yazılmaqla bərabər müstəqillik, azadlıq dövrü kimi yaddaşlara iz saldı. Ötən əsrin 90-cı illərinin əvvəlləri bir tərəfdən blokada, bir tərəfdən də mənfur qonşumuz ermənilərin ardı-arası kəsilməyən hücumları Naxçıvanda çox təhlükəli, daha dəqiq desək, qorxunc bir vəziyyət yaradırdı. Bu həmin vaxtlar idi ki, sərhədlərimizdə döyüş gedirdi, hər yerdən ümidi üzülən yerli əhali günün çoxunu çörək növbələrində keçirirdi. Bu dəhşətli vəziyyət Ümummilli Lider yenidən hakimiyyətə qayıdanadək davam etdi.

## Atalardan oğullara qalan ərməğan

Naxçıvanın sərhədlərini gecə-gündüz qoruyan oğullar Vətən müharibəsi başlayan kimi Qarabağın işğaldan azad olunması üçün müqəddəs savaşa atılıblar. Onlar atalarından, ulu babalarından qalan əmanəti öz canları bahasına qoruyub tarixin səhifələrinə öz adlarını qızıl hərflərlə yazdılar. Ali Baş Komandanın ətrafında birləşib, öz silahdaşları ilə bir olub, düşmənin başına yumruq kimi çaxıb, zəfəri Şuşada tamamlayıb "dəmir yumruğ"un bir parçası oldular. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının yüz illiyinin qeyd edilməsi haqqında imzaladığı Sərəncamda deyilir: *"Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar".*

✍ Ramiyə ƏKBƏROVA



# Xalqımızın zəngin dövlətçilik təcrübəsi var




***Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.***

Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin, bilavasitə, rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynadı.

Müasir şəraitdə elmin qarşısında dayanan vəzifələrdən biri də sarsılmaz milli müstəqil dövlətçilik düşüncəsi aşılayan əsərlərin yazılmasıdır. Bundan ötrü tarixi müqayisəli üsulla millətimizin qədim və zəngin dövlətçilik təcrübəsinə nəzər yetirmək, haradan-haraya gəldiyini bilmək və onlardan ibrət dərsləri almağı aşılayan kitablar müstəsna əhəmiyyət daşıyır. Bu baxımdan, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilovun məsləhətçisi və Ali Məclis sədrinin müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Arzu Abdullayevin müəllifi olduğu "Konstitusiya, suverenlik və yeni siyasi konfiqurasiya: tarixi irs, müasir çağırışlar və gələcəyə baxış" adlı kitab diqqəti cəlb edir. Əsər Prezident İlham Əliyev tərəfindən "Konstitusiya və Suverenlik İli" elan edilən 2025-ci ildə yazılıb və mühüm əhəmiyyət kəsb edir.

Yeni çap olunan kitabın elmi redaktoru Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, professor Ziyafət Əsgərov, ön sözün müəllifi Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, AMEA-nın müxbir üzvü Musa Qasımlı, rəyçiləri isə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadədir.

Üç fəsil və nəticədən ibarət olan kitabın "Azərbaycan Konstitusiyası: tarixi irsin, yeni çağırışların, strateji hədəflərin hüquqi tənzimlənməsi" adlı I fəslində müəllif qeyd etmişdir ki, Azərbaycanda konstitusiya quruluşunun əsası 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti ilə qoyulmuşdur. Ondan əvvəlki dövrlərdə idarəçilik şəriət qaydalarına əsaslanmış, müasir mənada konstitusiya mövcud olmamışdır. Şimali Azərbaycanda çar Rusiyası qanunları, Cənubi Azərbaycanda isə 1906-cı il "Qanun-i Əsasi" tətbiq edilsə də, bunlar müasir konstitusiya nümunəsi sayıla bilməzdi. Azərbaycan milli dövlətçiliyində konstitusionalizmin ilk nümunəsi 1918-ci ildə qəbul olunmuş İstiqlal Bəyannaməsidir. Müəllif bu sənəddə müstəqil, demokratik və parlamentli respublikanın əsas prinsiplərinin müəyyən edildiyini, vətəndaş hüquq və azadlıqlarını, hakimiyyət bölgüsünün və milli suverenliyin bəyan edildiyini vurğulamışdır. Onun fikrincə, bu sənəd tam Konstitusiyanı əvəz etməsə də, Azərbaycan Xalq Cümhuriyyətində müasir konstitusion dövlət quruculuğunun siyasi və hüquqi təməlini qoymuşdur. Cəmi 23 ay mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti demokratik, hüquqi dövlət quruculuğu sahəsində möhkəm təməl yaratmış, bu dəyərlər sonradan müstəqil Azərbaycan Respublikasının bərpası üçün tarixi və hüquqi əsas rolunu oynamışdır.

Müəllif birinci fəsildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Konstitusiyanın qəbuluna imkan olmadığından, 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının hazırlanması və qəbulunda Ümummilli Lider Heydər Əliyevin həlledici rolundan bəhs etmiş və onun rəhbərliyi ilə Azərbaycan dilinin konstitusion statusunun tanındığını, milli maraqların qorunduğunu vurğulamışdır. 1978-ci il tarixli Konstitusiya respublikanın Əsas Qanunu olmaqla yanaşı, eyni zamanda Heydər Əliyevin müstəqil, suveren, bütöv Azərbaycan strategiyasının əsas "yol xəritəsi" kimi təqdim edilmişdir.

Müstəqil Azərbaycanın yeni Konstitusiyasının hazırlanması tələbi "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında nəzərdə tutulduğu müəllif tərəfindən xüsusi olaraq qeyd edilmişdir. Hətta bundan əvvəl, 1991-ci ilin 9 fevralında Azərbaycan Respublikası Ali Sovetinin Qərarı ilə Azərbaycanın yeni Konstitusiyasının hazırlanması üçün 74 nəfərdən ibarət komissiyanın da yaradılması ilə bağlı məlumat vermiş, lakin bu istiqamətdə heç bir əməli işin görülmədiyini qeyd etmişdir. Daha sonra müəllif bildirmişdir ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldiyi dövrdən qısa bir zaman keçməsinə baxmayaraq, Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının hazırlanması üçün fəaliyyətə başlamışdır. 1995-ci ilin iyulunda Azərbaycan Respublikası Milli Məclisinin iclasında Prezident Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiyasının layihəsini hazırlamaqla məşğul olan dövlət komissiyası təşkil edilmişdir. Bu komissiyaya ölkəmizin görkəmli alimləri, hüquqşünaslar, mütəxəssislər, ziyalılar, rəhbər işçilər daxil edilmişdir. Ümummilli Liderin rəhbərliyi altında çalışan komissiya gərgin fəaliyyətdən sonra layihə üzərində işi başa çatdırmış və bu sənədi ümumxalq müzakirəsinə təqdim etmişdir. Konstitusiya layihəsi 12 noyabr 1995-ci ildə keçirilən ümumxalq səsverməsində – referendumda ölkə seçicilərinin 86 faizinin iştirakı ilə 91,9 faiz səslə qəbul edilmişdir.

Əsərin II fəsilində möhkəm təmələ əsaslanan qüdrətli suverenlik kursundan, Prezident İlham Əliyevin suverenlik prioritetlərindən, "Qarabağ Azərbaycandır və nida"nın zəfər çağırışlarından, suverenliyin "dəmir yumruq" təminatından söhbət açılır. Müəllif, həmçinin Azərbaycanın və ümumən, Cənubi Qafqaz regionunun tarixində müstəsna əhəmiyyətə malik hadisə baş verdiyini: 8 avqust 2025-ci ildə Vaşinqtonda, Ağ Evdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanla Birgə Bəyannamə imzaladığını və Azərbaycanla Ermənistan arasında sülh sazişinin layihəsinin paraflandığını qeyd etmiş, Azərbaycanla Ermənistan arasında uzun illərdən sonra əbədi sülhün əldə olunmasına, bölgəmizdə bütün tərəflər üçün qarşılıqlı əməkdaşlıq, dayanıqlı inkişaf mühitinin yaranmasına, bu torpaqlarda yaşayan insanların rifah və xoşbəxtliyinə yol açan belə mühüm addımla Cənubi Qafqazda yeni strateji dövr başlandığını vurğulamışdır. Tarixçi alim Vətən müharibəsindəki zəfərimizin ilk rəsmi təsdiqinin 10 noyabr Bəyanatında Azərbaycan liderinin sülh gündəliyinə daxil etməyə müvəssər olduğunu Zəngəzur dəhlizi layihəsinin cənab İlham Əliyevin Qafqaza dayanıqlı sülh və davamlı inkişaf gətirmək missiyasının son dərəcə əhəmiyyətli parçası olduğunu yazmışdır. Bütün bunlarla yanaşı, müəllif haqlı olaraq vurğulamışdır ki, Prezident İlham Əliyev hərb meydanındakı nailiyyətlərini paralel olaraq beynəlxalq diplomatiya arenasında da çox dəqiqliklə yürütmüşdür. Müəllif Vətən müharibəsindəki zəfərimizdən dərhal sonra azad Qarabağda, Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq tədbirlərinin başlandığından, bu ərazilərdə Azərbaycanın ümumi inkişaf axarına qovuşması üçün zəruri addımların atılmasından bəhs etmişdir.

Sonuncu – "Yeni siyasi konfiqurasiya: dayanıqlı inkişafın və milli birliyin etibarlı təməli" adlanan III fəsildə isə yeni tarixi mərhələdə yeni siyasi konfiqurasiya, Heydər Əliyev siyasi arxitekturası, siyasi islahatlarda yeni prioritet: siyasi konfiqurasiyanın modernləşməsi, siyasi sistemin möhkəmlənməsi, tarixi ədalətin bərpası, Qərbi Azərbaycana qayıdış: yeni siyasi konfiqurasiyanın anti-Azərbaycançı şəbəkəyə böyük zərbələri və IV Sənaye İnqilabı Dövrünün siyasi konsepsiyası geniş təhlil edilmişdir. Müəllif yazır: "5 il öncə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilən böyük zəfərin yaratdığı reallıqlar Azərbaycanın tarixində dönüş mərhələsi olduğu kimi, yeni hədəflərin müəyyənləşməsini də zərurətə çevirdi. Ölkədə bütün sahələrdə aparılan islahatlar daha geniş miqyas və yeni format almış, dövlət quruculuğu prosesində müasir metod və təkmil nümunələrdən istifadə olunmuşdur. Əldə edilən effektiv və səmərəli nəticələr dövlətin qüdrətinə, xalqın rifahına, vətəndaşın inam və güveninə müsbət təsir göstərmişdir. Respublikamızda böyük çətinliklə əldə olunan sabitlik sonradan möhtəşəm iqtisadi sıçrayışın və sosial inkişafın təməli, bu nailiyyətlər isə tarixin ən qüdrətli Azərbaycanının və ən böyük zəfərinin təminatçıları oldular. Bu gün respublikamız Prezident İlham Əliyevin liderliyi ilə Avrasiya məkanının ən əsas enerji, təhlükəsizlik, nəqliyyat-logistika aktorlarından birinə çevrilərək, etibarlı qlobal əməkdaşlıq platforması kimi qəbul edilir. Avropadan Asiyaya, dənizaşırından Afrikayadək dövlətlərin rəhbərləri Prezident İlham Əliyevi güvənilən lider, sınanmış partnyor, səmimi dost elan ediblər".

Kitabda 2019-cu ildən ölkədə siyasi sistemdə yeni siyasi yol xəritəsinin hazırlanmasından, Prezident İlham Əliyevin müəyyən etdiyi və müəllifi olduğu yeni siyasi konfiqurasiya xəttinə uyğun siyasi partiyalarla iş sahəsində önəmli addımlardan, ölkədəki siyasi dialoqdan, milli həmrəylikdən, partiyaların dövlət qeydiyyatına alınıb qurultaylarının keçirilməsindən bəhs edilir. Həmçinin ölkədə yeni siyasi kofiqurasiyanın müəyyən olunduğu bir vaxtda "Siyasi partiyalar haqqında" yeni qanunun olması zərurəti ilə 20-yə yaxın ölkənin təcrübəsi və Venesiya Komissiyasının Azərbaycana göndərdiyi tövsiyələr əsasında təkmil bir formada layihənin hazırlanmasından geniş söhbət açılır. Əsərdə də qeyd olunduğu kimi, cənab İlham Əliyev dövlətin və xalqının sabahını yalnız sədri olduğu partiyanın və lideri olduğu iqtidarın maraqları baxımından dəyərləndirmir. O, əsl milli lider, böyük vətənpərvər, tarix yaradan və yazan rəhbər kimi Azərbaycan dövlətini və xalqını dünyanın ən güclüləri, ən müasirləri sırasına çıxarmağı məqsəd seçib. O, Azərbaycanın qarşıdakı beş ilini, on ilini düşünmür, onun hədəfləri əsrləri əhatə edir. Bu gün təməlini atdığı və artıq nəticələrini gördüyü enerji layihələri, nəqliyyat-logistik təşəbbüsləri, iqtisadi planları, sosial məqsədləri necə ki əsrlər sonra da Azərbaycanı qüdrətli və rifahlı edəcək, eləcə də onun siyasi islahatları, yaratdığı yeni siyasi konfiqurasiya respublikamızı onilliklər sonra da dünyanın ən modern, demokratik ölkələri sırasında qərarlaşdıracaq. Siyasi sistemdə islahatlar Prezident İlham Əliyevin yaratdığı tarixin ən qüdrətli Azərbaycanında yeni siyasi münasibətləri formalaşdıran, ölkədə vətəndaş həmrəyliyini və milli birliyi davamlı möhkəmləndirən əsas amillərdəndir. Bəli, yeni dialoq modeli ilə iqtidar-müxalifət münasibətlərində uzun müddət davam edən ətalət dövrü bitdi, siyasi sistemdə böyük canlanma yarandı. Müxalifət partiyaları anladılar ki, yeni siyasi konfiqurasiyada onlardan tələb olunan şərt heç də iqtidarın nəzarətinə keçmək yox, yalnız və yalnız ümummilli məsələlərdə vahid mövqe nümayiş etdirməkdir. "Milli Şura" adlı antimilli cəfəng qurumda toplaşan qaragüruh istisna olmaqla siyasi sistemin bütün çalarları Prezidentin dialoq təşəbbüsünə müsbət cavab verdilər.

Əsərin nəticə hissəsində müəllif Konstitusiyanı dövlətin siyasi-hüquqi sisteminin əsasını təşkil edən ali normativ sənəd adlandıraraq Azərbaycan konstitusionalizminin başlanğıcını 1918-ci il İstiqlal Bəyannaməsi ilə qoyulduğunu qeyd edir. Müəllif 1978-ci il Konstitusiyasında Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsini milli dövlətçilik tarixində mühüm dönüş nöqtəsi hesab edir. "2020-ci ilin 44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror əməliyyatında əldə olunan tarixi qələbələr Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir", – deyən tarixçi alim Konstitusiyanın real icra mərhələsinə keçidini qeyd etmişdir. O daha sonra vurğulayır ki, tarixi zəfər Azərbaycanın regional və qlobal mövqeyini gücləndirmiş, Zəngəzur dəhlizi kimi strateji layihələri aktuallaşdırmış, Şuşa Bəyannaməsi ilə Azərbaycan-Türkiyə müttəfiqliyi yeni mərhələyə yüksəlmişdir.

Postmüharibə dövründə həyata keçirilən "Böyük Qayıdış" Proqramından, Qarabağ və Şərqi Zəngəzurun bərpasından, "Azərbaycan 2030" Milli Prioritetləri və yeni siyasi konfiqurasiya islahatlarından bəhs edən müəllif dövlət-vətəndaş münasibətlərinin möhkəmlənməsini, milli həmrəyliyin güclənməsini diqqətə çatdırır, Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan yeni siyasi yol xəritəsi haqqında danışarkən Azərbaycanın müasir, suveren və dayanıqlı dövlət kimi inkişafını təmin edən əsas strateji çərçivə haqqında yüksək elmi təhlil ortaya qoyur. Kitabda Azərbaycanın konstitusiya, suverenlik və siyasi sistem quruculuğu tarixi, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan milli inkişaf strategiyasının real nəticələri, respublikamızda son 30 ildən artıq dövrdə həyata keçirilən düzgün iqtisadi-sosial, siyasi, hüquqi, xarici siyasətin təntənəsi, Azərbaycanın çağdaş siyasi tarixinə yeni missiya ilə daxil olan cənab İlham Əliyevin milli dövlət quruculuğu və siyasi idarəçiliyinin şərəfli mərhələsi, onlardan çıxan nəticələrin ümumiləşdirilməsi müfəssəl təsəvvürün formalaşmasına xidmət edir.

Hesab edirəm ki, "Konstitusiya, suverenlik və yeni siyasi konfiqurasiya: tarixi irs, müasir çağırışlar, gələcəyə baxış" kitabı elm və təhsil ictimaiyyəti, tədqiqatçılar, politoloqlar, xüsusən də gənc nəsil üçün dəyərli vəsaitdir. Kitabın oxucularda özünə inam, milli qürur və müstəqil milli dövlətçilik hisslərini artıracağına inanıram.

**Anar İSGƏNDƏROV**
***Milli Məclisin Elm və təhsil komitəsinin sədri, tarix elmləri doktoru, professor***

## Əməkdaşlıq memorandumu imzalanıb



Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında əməkdaşlıq görüşü keçirilib.

Əvvəlcə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) nümayəndə heyəti universitetin tədris infrastrukturu, elmi-tədqiqat imkanları və tələbələr üçün yaradılan şəraitlə yaxından tanış olublar.

Tanışlıqdan sonra NDU-nun İncəsənət fakültəsində baş tutan tədbirdə ali təhsil ocağının rektoru Elbrus İsayev çıxış edərək qonaqlara universitetin tarixi, fəaliyyəti, inkişafı haqqında ətraflı məlumat verib və tədbirin əhəmiyyətindən danışıb.

UNEC-in rektoru Ədalət Muradov çıxışında görüşdən məmnunluğunu bildirib, rəhbərlik etdiyi ali təhsil müəssisəsinə dair məlumatları bölüşüb, elmin inkişafı üçün atılan addımlardan danışıb.

Daha sonra Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumda hər iki universitetin elektron kitabxanalarının inteqrasiyası, ortaq tədqiqatların aparılması öz əksini tapıb.

Sonda görüşdən xatirə olaraq qarşılıqlı hədiyyələr təqdim edilib, foto çəkdirilib.

# "Zayed İnsan Qardaşlığı Mükafatı"

## Azərbaycan Prezidentinin sülhü bərqərar edən siyasətinə verilən yüksək dəyərdir



Prezident İlham Əliyev dünyada Azərbaycanın ərazi bütövlüyünü bərpa edən və milli maraqlarını qətiyyətlə qoruyan güclü lider kimi qəbul olunur. Dövlətimizin başçısının qətiyyət, iradə, prinsipiallıq, alicənablıq kimi keyfiyyətləri bu strateji məqsədlərə çatmaq üçün əsas olub. Azərbaycana siyasətin davamlılığını, daxili sabitliyi və milli maraqların ardıcıl qorunmasını təmin etməyi bacaran bir lider – Prezident İlham Əliyev rəhbərlik edir.

Dövlət strategiyasını müəyyən edən bütün bu göstəricilərin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsi sevindirici haldır. Bunun bariz nümunəsi Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu tərəfindən 2026-cı il "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Azərbaycan Prezidentinə verilməsidir. Fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi keçirilib. Prezident İlham Əliyevə mükafat təqdim olunub. Prezident İlham Əliyev Əbu-Dabidə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim edilməsi mərasimində bildirib: ***"Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyan bir mükafatı almaq mənim üçün böyük şərəfdir. O, BƏƏ-ni dünyanın ən çiçəklənən və uğurlu ölkələrindən birinə çevirən böyük liderdir. Əziz qardaşım Şeyx Məhəmməd atasının siyasətini inkişafda, irəliləyişdə, davamlı modernləşmədə davam etdirir. Bu gün BƏƏ bir çox ölkələr üçün ölkəni necə dəyişdirmək, sülh və harmoniya içində yaşayan, tarixi kökləri ilə dərin bağlı olan, eyni zamanda gələcəyə baxan bir cəmiyyət qurmaq üçün, həqiqətən, bir nümunədir".***

Bu mükafat Azərbaycan Prezidentinin qlobal sülh səylərinə, şəxsi əzmi, qətiyyəti və prinsipiallığı ilə Cənubi Qafqazda de-fakto sülhü təmin etməsinə verilən yüksək qiymət, dövlətimizin rəhbərinə göstərilən beynəlxalq ehtiramın təzahürü kimi dəyərləndirilməlidir. Bu mükafatın Qafqazda onilliklər boyu davam edən münaqişələrə və humanitar əzablara son qoyan "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında Sülhün Qurulması və Dövlətlərarası Münasibətlər haqqında Saziş"in paraflanmasına görə verildiyi vurğulanır. 2020-ci ilin payızında Vətən müharibəsində qalib gələn və 2023-cü ilin sentyabrında birgünlük antiterror əməliyyatını uğurla həyata keçirən Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam şəkildə bərpa etdi və dünyaya ərazi mübahisələrinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həll edilə biləcəyini göstərdi.

Yanvarın 20-də Davosda "Euronews" televiziyasına müsahibəsi zamanı Prezident İlham Əliyev söylədi ki, belə nüfuzlu mükafatı almaq onun üçün böyük şərəfdir: ***"Mən bu qərarı otuz ildən artıq müddətdə qan tökülməsindən, münaqişə və müharibələrdən sonra Qafqazda sülhün qurulmasında səylərimizə verilən qiymət kimi qəbul edirəm".***

Bu il yanvarın 9-da Prezident İlham Əliyev Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı, "Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvləri – Avropa İttifaqı Şurasının sabiq Prezidenti Şarl Mişeli və Afrika İttifaqı Komissiyasının sabiq sədri Musa Fakini qəbul edib. Görüş zamanı Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamın *"Münsiflər heyətinin adından demək istərdim ki, sülh sazişi üzrə uğurun əldə olunması üçün zatialinizin gördüyü işlər bizim hamımızı ruhlandırır və dünyanın müxtəlif yerlərində mövcud münaqişə bölgələri üçün sülhün möhtəşəm bir nümunəsidir. Biz və bütün dünya bunu dəyərlər baxımından yüksək qiymətləndiririk, çünki dünyanın, həqiqətən, buna ehtiyacı var. Həmin mükafatın Sizə təqdim edilməsi sazişin sülh, barışıq və regional sabitliyin bərqərar edilməsi baxımından əhəmiyyətini göstərir. Cənab Prezident, Sizə, həqiqətən, təşəkkürümüzü bildiririk",* – deməsi də Prezident İlham Əliyevin sülh missiyasına verilən böyük dəyəri özündə ehtiva edir.

Bir sözlə, "Zayed İnsan Qardaşlığı Mükafatı" Prezident İlham Əliyevin qlobal miqyasda sülhə töhfə verən siyasi xadim kimi qəbul olunduğunu, nümunə yaratdığını bir daha təsdiqləyir.

**Şəhla ƏHMƏDOVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

# Azərbaycan-BƏƏ münasibətləri davamlı inkişaf mərhələsindədir

Azərbaycan təkcə Avropa və türk dövlətləri ilə deyil, eyni zamanda ərəb dünyası ilə də münasibətlərini yeni keyfiyyət mərhələsinə yüksəldib. Prezident İlham Əliyevin ərəb ölkələrinə, eləcə də həmin ölkələrin liderlərinin Azərbaycana müntəzəm səfərləri bu əlaqələrin sistemli və yüksələn xətt üzrə inkişaf etdiyini təsdiqləyir. Bu kontekstdə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ötən il Azərbaycana rəsmi səfəri, eləcə də Prezident İlham Əliyevin BƏƏ-yə işgüzar səfəri xüsusi əhəmiyyət daşıyır. Şuşada imzalanan sənədlər, xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə Azərbaycan-BƏƏ əlaqələrinin gələcək inkişaf istiqamətlərini müəyyən edən əsas sənəd kimi dəyərləndirildi. Bu əməkdaşlıq xəttinin davamı olaraq Prezident İlham Əliyevin fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinə həyata keçirdiyi işgüzar səfər ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət etdi. Səfər çərçivəsində dövlət başçısı Əbu-Dabidə BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan, eləcə də Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam ilə görüşlər keçirdi. Görüşlərdə Azərbaycan-BƏƏ münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsində olduğu vurğulandı, siyasi, iqtisadi, enerji, bərpa olunan enerji, mədəni və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsindən məmnunluq ifadə olundu.

Qarşılıqlı səfərlərin və müntəzəm dialoqun əlaqələrin dərinləşməsində mühüm rol oynadığı xüsusi qeyd edildi.

Enerji sektoru Azərbaycan-BƏƏ əlaqələrinin əsas dayaqlarından biridir. Neft-qaz ehtiyatları ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan, eyni zamanda "yaşıl enerji" sahəsində də regional liderliyə iddialıdır. Təsadüfi deyil ki, COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar məhz Birləşmiş Ərəb Əmirliklərində qəbul olunub. Bu fakt iki ölkə arasında iqlim diplomatiyası sahəsindəki əməkdaşlığın yüksək səviyyəsini göstərir. 2022-ci ildə "Qaradağ" Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi, 2023-cü ildə isə stansiyanın istifadəyə verilməsi bu əməkdaşlığın real nəticəsidir.

Hüquqi bazanı formalaşdıran sənədlərin imzalanması əlaqələrin davamlılığında mühüm rol oynayır. Prezident İlham Əliyevin BƏƏ-yə son səfəri zamanı "Cənub Qaz Dəhlizi" QSC-də dövlətə məxsus payın bir hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı müqavilənin imzalanması, eləcə də müdafiə sahəsində niyyət məktubunun qəbul olunması münasibətlərin daha da dərinləşəcəyinə dair əminlik yaradıb.

Səfər çərçivəsində fevralın 3-də Əbu-Dabidə keçirilən "Sülh Qalxanı – 2026" birgə əməliyyat-taktiki təlimi də diqqət mərkəzində olub. Hərbi qulluqçuların iştirak etdiyi təlimdə antiterror əməliyyatları, girovların azad edilməsi, dəniz və dağlıq ərazilərdə əməliyyatlar, fövqəladə hallara reaksiya kimi tapşırıqlar icra olunub. Təlimin əsas məqsədi qarşılıqlı təcrübə mübadiləsi və regional təhlükəsizliyə töhfə verməkdir.

Səfər zamanı Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən görüş də mühüm əhəmiyyət daşıyıb. Görüşdə Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmaların icrası, normallaşma prosesində müsbət dinamikanın qorunması və etimad mühitinin möhkəmləndirilməsi məsələləri müzakirə olunub. İkitərəfli ticarətin başlaması, tranzit və enerji sahəsində əməkdaşlıq müsbət addımlar kimi dəyərləndirilib.

Azərbaycan regional və qlobal səviyyədə sülhün, təhlükəsizliyin və əməkdaşlığın tərəfdarıdır. Qütbləşən dünyada yeni əməkdaşlıq modelləri təklif edən ölkəmiz real addımlarla sülhə sadiqliyini nümayiş etdirir. Prezident İlham Əliyevin həm BƏƏ-yə, həm də ABŞ-yə səfərləri bu siyasətin praktik nəticəsi kimi tarixə düşüb. Regionda sülh və sabitliyə aparan yolun məhz Azərbaycanın təşəbbüsləri ilə formalaşması ölkəmizin beynəlxalq hüquqa və ədalətə əsaslanan mövqeyinin göstəricisidir. Azərbaycan sülhə hazır olduğunu yalnız bəyanatlarla deyil, atdığı konkret addımlarla sübut edir.

**Xəzəngül ORUCOVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

# Humanizm siyasətinə verilən ali qiymət

***Dövlət başçımızın "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Vətən müharibəsində qazanılan tarixi zəfərin sülh meydanında da müvəffəqiyyətlə tamamlanmasına verilən qiymətin, dəyərin ifadəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "Euronews" televiziyasına müsahibəsində dediyi kimi: "Zayed İnsan Qardaşlığı Mükafatı" – belə nüfuzlu mükafatı almaq mənim üçün böyük şərəfdir. Xüsusən də o, Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyır. Mən bu qərarı otuz ildən artıq müddətdə qan tökülməsindən, münaqişə və müharibələrdən sonra Qafqazda sülhün qurulmasında səylərimizə verilən qiymət kimi qəbul edirəm".***

Xatırlatmaq yerinə düşər ki, Şeyx Zayed Fondu BƏƏ-nin banisi Şeyx Zayed bin Sultan Əl Nəhyanın irsini yaşatmaq üçün təsis edilib. Fondun əsas missiyasının fəlsəfəsi dünyada humanizm, dözümlülük, ətraf mühitin qorunması və xalqlararası sülhün təşviqidir. "Zayed İnsan Qardaşlığı Mükafatı" dünyada sülh, həmrəylik və dinc, yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilən nüfuzlu beynəlxalq mükafatdır. Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycanın sülh, əməkdaşlıq diplomatiyasına beynəlxalq rəğbətin ifadəsi olmaqla dövlət başçımızın strateji müdrikliyi və liderlik məharətinin dünya miqyasında böyük etimad qazandığını göstərən mühüm amildir. "Zayed İnsan Qardaşlığı Mükafatı" münsiflər heyətinin üzvü və mükafatın baş katibi Məhəmməd Əbdülsəlamın vurğuladığı kimi, *"Bu il "Zayed İnsan Qardaşlığı Mükafatı" Komitəsi Ermənistan və Azərbaycan arasında tarixi sülh müqaviləsini seçdi. Bu müqavilə mükafatın dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişaf etdirilməsi missiyasını və məqsədlərini təcəssüm etdirir. Bu, qlobal sülhün inkişafında mühüm mərhələ və böyük diplomatik nailiyyət hesab olunur".* Bu nüfuzlu mükafat təkcə Prezident İlham Əliyevin şəxsi liderlik keyfiyyətlərini əks etdirir, həm də münaqişədən sonrakı dövrdə Azərbaycan dövləti tərəfindən hazırlanmış sülh gündəliyinin qlobal miqyasda tanındığını nümayiş etdirir. Davosda "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasda Prezident İlham Əliyev vurğuladı ki, paraflanmış sənəd bu gün praktiki nəticələrə çevrilir: ***"Biz sülh şəraitində nəinki cəmi 5-6 aydır yaşayırıq və bu vəziyyətdən yararlanırıq, o cümlədən nə Ermənistan, nə Azərbaycan müstəqil ölkələr kimi heç zaman sülhdə yaşamayıblar. 1991-ci ildə müstəqil ölkəyə çevrildiyimiz zaman biz artıq hərbi toqquşmada idik. Lakin bu gün sülhün faydası əməkdaşlığın başlanmasında əks olunur".***

Fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi keçirilib. Prezident İlham Əliyevə mükafat təqdim olunub. Prezident mükafat mərasimində deyib: ***"Bugünkü mükafat mərasimi və hörmətli münsiflər heyəti ilə bütün dostlarımız tərəfindən səylərimizin qiymətləndirilməsi olduqca ruhlandırıcıdır. Mən hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür. Hər iki tərəfdən güclü siyasi iradə mövcud olduğu və həmin proses dost ölkələr və beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyi halda, sülh mümkündür".***

Bu ali mükafat, eyni zamanda Azərbaycanın haqq və ədalətə əsaslanan mövqeyinin beynəlxalq aləmdə qəbul edildiyini ortaya qoyur. Prezident İlham Əliyev sülhə aparan yolun ən çətin mərhələlərində belə prinsipial mövqedən geri çəkilməyərək onu təmin etmək üçün böyük səy nümayiş etdirdi.

Bu gün Azərbaycanda sabitlik hökm sürür. Bu onun milli liderinin böyük şəxsiyyət olduğunu göstərir. Liderin siyasi iradəsi və qətiyyəti həm inkişaf vektorlarını, həm də daxili sabitliyi, eləcə də ölkənin beynəlxalq arenadakı qələbələrini müəyyən edir. Prezident İlham Əliyevə nüfuzlu Şeyx Zayed Fondu tərəfindən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın verilməsi Azərbaycana bütün beynəlxalq ictimaiyyət tərəfindən hörmət edilən bir lider tərəfindən rəhbərlik edildiyini bir daha təsdiqləyir.

**Aysel DÜNYAMALIYEVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

# Hesabı belə bağladıq ÖMÜRLÜK HƏBS

Azərbaycan mediasında son illərin ən ağır, ən gecikmiş, lakin ən ədalətli sərlövhələri artıq tarixə çevrildi.

Bu sadəcə, məhkəmə xəbəri deyil. Bu, illər boyu susdurulan ədalətin, Azərbaycan xalqının boğazında düyünlənmiş haqq səsinin, nəhayət, eşidilməsidir.

Bir zamanlar özlərini Qarabağ torpaqlarında “komandan”, “rəhbər”, “prezident” kimi təqdim edən şəxsləri efirlərdə gördükcə qəlbimiz sızlayırdı. İndi isə həmin adlar tarixə müharibə cinayətkarları kimi yazıldı. Bu günləri görmək həm qürurdur, həm də illərlə yığılan ağrının gecikmiş təsəllisidir.

Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesinin hökm mərhələsi bir həqiqəti bir daha sübut etdi – Azərbaycan yalnız döyüş meydanında deyil, hüquqi müstəvidə də qalib dövlətdir.

Məhkəmənin hökmünə əsasən:

*– Arayik Harutyunyan ömürlük azadlıqdan məhrum edilib;*

*– Levon Mnatsakanyan ömürlük həbs cəzası alıb;*

*– David Manukyan ömürlük azadlıqdan məhrum edilib;*

*– Davit İşxanyan ömürlük azadlıqdan məhrum edilib;*

*– David Babayan ömürlük həbs edilib;*

*– Arkadi Qukasyan 20 il müddətinə azadlıqdan məhrum olunub;*

*– Bako Sahakyan 20 il müddətinə azadlıqdan məhrum edilib.*

Bu adların hər biri Azərbaycan xalqının yaddaşında işğal, qan, gözyaşı, kədər, dağıdılmış şəhərlər, yandırılmış kəndlər və məzarlıqlara çevrilmiş evlər demək idi. Bu gün həmin adları cinayət işləri üzrə hökm oxunan siyahıda görmək ədalətin təntənəsidir.

**Bu gün üzümüz gülür, çünki ədalət geciksə də, ünvanına çatdı. Azərbaycan qalibdir. Qarabağ Azərbaycandır! Və bu qalibiyyət artıq ömürlük hökmlərlə tarixə yazılıb.**

Məhkəmə sübut etdi ki, təqsirləndirilən şəxslər Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, soyqırımı, terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, təcavüzkar müharibənin hazırlanması və aparılması, hakimiyyəti zorla ələ keçirmə və saxlama kimi ağır cinayətlər törədiblər.

Bu hökm yalnız təqsirləndirilənlərə deyil, onları illərlə müdafiə edənlərə, himayə göstərənlərə, susan və ya susdurulan bütün dairələrə ünvanlanmış ciddi siyasi və hüquqi mesajdır.

Xüsusi vurğulanmalıdır ki, Azərbaycan bu mərhələyə təsadüfən gəlməyib. Bu nəticə Prezident cənab İlham Əliyevin illər boyu apardığı ardıcıl, prinsipial və qətiyyətli siyasətin məntiqi davamıdır. Əgər bu gün Bakı Hərbi Məhkəməsində hökm oxunursa, bu, ilk növbədə, Ali Baş Komandanın siyasi iradəsi, ordunun gücü və dövlətin hüquqi mexanizmlərinin düzgün işləməsinin göstəricisidir.

Bəli.

Biz torpaqlarımızı azad etdik.

Biz ərazi bütövlüyümüzü bərpa etdik.

İndi isə şəhidlərimizin qanının yerdə qalmadığını hüquqi sənədlərlə təsdiqlədik.

Bu hökm Xocalının, Ağdamın, Füzulinin, Şuşanın, Laçının, Kəlbəcərin səssiz harayına verilən cavabdır.

Bu hökm qəbiristanlıqlarda böyüyən uşaqların, övlad yolunu gözləyən anaların, yarımçıq qalan ömürlərin haqqıdır.

İllərlə gözlədiyimiz sərlövhələr, nəhayət, yazıldı.

Bu gün üzümüz gülür, çünki ədalət gecikdə də, ünvanına çatdı.

Azərbaycan qalibdir.

Qarabağ Azərbaycandır!

Və bu qalibiyyət artıq ömürlük hökmlərlə tarixə yazılıb.



*“Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt icazə verməyəcəyik”.* Dövlət başçısının da dediyi kimi, imkan vermədik də. Müzəffər Sərkərdə və Onun yenilməz ordusu torpaqlarımızı 30 illik işğaldan 44 gündə azad etdi. 2023-cü ildə isə qalib ordumuz 23 saatda orada qanunsuz şəkildə yaradılan və illərdir, özünü “dövlət” elan edən qondarma qurumu yerləyeksan etdi. Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin, bilavasitə, rəhbərlərinin tapşırıqlarını yerinə yetirməkdə təqsirli bilinən şəxslər tərk-silah edilərək Azərbaycana gətirildi, cinayət məsuliyyətinə cəlb edildi.

# Ədaləti özümüz gətirdik bu dəfə məhkəmə zalında

Artıq iki ildir ki, davam edən məhkəmə prosesi zamanı həmişəki kimi Azərbaycan xarici təsirə məruz qaldı. Əlində xocalılı onlarla məsum körpənin, Gəncə, Bərdə terrorunun qurbanlarının qanı olan bu şəxslərin azadlığa buraxılması üçün edilən bütün təzyiqlərin qarşısında Müzəffər Sərkərdənin “dəmir yumruğ”u dayandı. Torpaqlarımız işğaldan azad ediləndə göstərdiyimiz cəsarət yenidən nümayiş olundu və hər kəs susub öz yerinə oturmaq məcburiyyətində qaldı. Və bu gün onlar layiq olduğu cəzanı aldı.

5 fevral 2026-cı il. Bu tarix uzun illər yaddaşlarda qalacaq, çünki bu gün ədalətin bərqərar olduğu gündür. 44 gündə və sonrakı əməliyyatlarda əldə etdiyimiz qələbəyə necə sevinirdiksə, bu gün də elə qürur duyduq. Döyüş meydanında, siyasi masada qalib olan Azərbaycan bu gün də hüquqi və ədaləti məhkəmə zalında bərpa etdi. Sülh və insanlıq əleyhinə ağır cinayətlər törətməkdə ittiham olunan erməni əsilli şəxslərin hökmü oxundu.

Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikası vətəndaşlarının məhkəməsi dünyaya daha bir ədalət mesajı verdi.

2023-cü ilin payızında qondarma “prezident” Arayik Harutyunyan başda olmaqla uşaq qatillərinin hansı şəkildə həbs edilib ölkəyə gətirildiyi kadrları necə qürurla izlədiksə, bu dəfə də verilən layiqli cəzanı eyni sevinclə qarşıladı cəmiyyətimiz. Çünki bu təkcə qatillərə verilmiş cəza deyildi, həm də iki əsrdən bəri erməniləri dəstəkləyən bəzi qüvvələrə verilmiş cavab olmaqla bərabər, onların Bakıya gəlib burada çay içmək arzusunun da yerinə yetirilməsi idi. Müzəffər Ali Baş Komandanın dediyi kimi: ***“Onlar Bakıya gəlmək istəyirdilər, bizi hədələyirdilər, deyirdilər ki, tankları Bakı küçələrində olacaq. Həqli çıxdılar. Onların tankları bu gün Bakıdadır – Hərbi Qənimətlər Parkında. Deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Bu da doğrudur. İndi çay içirlər – istintaq təcridxanasında”.***

Biz illərlə gözləmişdik, “Ədalət gələcək”, – deyib yaramızın qaysaqlamağına imkan verməmişdik. O yara hər gün qanasa da. Çünki bizdən əvvəlki nəsillər səbəbini aramadan, axtarmadan namərd qonşularımızın “ərköyünlüyünü” ən qanlı faciə ilə bitmiş sanıb, ağılları qanlı faciə ilə bitmiş sanıb, ağılandıqlarını zənn etmişdi. Yanıldıqlarını isə tarix yenidən təkrar olunanda başa düşdük. Və bu günü görmək bu xalqın haqqı idi. Hər balasını bir təpədə itirən xocalılı anaların, atasız övladların, canını Vətənə qurban verib bayrağı bəy köynəyi bilən oğulların, məzarsız şəhidlərin qisasının sonuna kimi alındığını görmək hər bir azərbaycanlının haqqı idi.

**“Şərq qapısı”**

# Naxçıvan rezidenti olan sahibkarlara tətbiq olunan güzəştlər onlara nə vəd edir

*Xəbər verdiymiz kimi bu ilin yanvarın 1-dən Naxçıvanda 10 illik müddətə sahibkarlar üçün vergi, sosial sığorta və gömrük güzəştləri tətbiq olunur. Bu mühüm dövlət tənzimləmə tədbirinin mahiyyəti barədə Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisadçı-ekspert Əli Cabbarovun fikirlərini öyrəndik:*

***– Əli müəllim, Naxçıvanda sahibkarlar üçün tətbiq olunan bu güzəştlərin iqtisadi mahiyyəti barədə nə deyə bilərsiniz?***

– Bu güzəştlərin əsas məqsədi 10 il müddətində sahibkarlıq mühitini daha da aktivləşdirmək, yeni sahibkarlıq subyektlərinin yaradılmasına stimul yaratmaqdır. Belə ki, uzun illər Naxçıvan Muxtar Respublikası blokada şəraitində qaldığı üçün sahibkarlar da müəyyən məhdudiyyətlərlə qarşılaşırdı. Lakin yeni reallıq, xüsusilə Zəngəzur dəhlizinin yaxın gələcəkdə açılması perspektivi regionda sahibkarlıq mühitinin genişlənməsi üçün mühüm imkanlar yaradır. Bu məqsədlə sahibkarlara tətbiq olunan güzəştlər və onların üzləşə biləcəyi risklərin paylaşılması, vergi, sosial sığorta və gömrük əməliyyatları zamanı ödənilən rüsumların dövlət tərəfindən qarşılanması sahibkarlara əlavə dəstək olmaqla yanaşı, fəaliyyətlərini stimullaşdırır. Eləcə də sahibkarların, xüsusən yeni biznesə başlayan sahibkarların risklərini minimumlaşdırmağa, istehsal xərclərini azaltmağa sahibkarların vergi öhdəliklərini, sosial sığorta yükünü və idxal xərclərini əhəmiyyətli dərəcədə azaltmağa yeni investisiyaların planlaşdırılmasına kömək edən dəstək mexanizmidir.

***– Bəs bu güzəştlərdən kimlər faydalanacaq və hansı sahələrdə daha çox inkişaf gözlənilir?***

– Sahibkarlıq risk sahəsidir və yeni işə başlayan sahibkarların fəaliyyətə həvəsləndirilməsi üçün dövlətin verdiyi bu dəstək çox vacibdir. Dövlət qərarında xüsusi qeyd olunur ki, qeyri-neft sektorunda tətbiq edilən güzəştlərin əhəmiyyəti böyükdür. Ölkəmiz neft ölkəsi olmaqla əsas gəlirlərini bu sahədən əldə edir, lakin işğaldan azad olunmuş bölgələrdə və Naxçıvanda alternativ sahələrin inkişafı, qeyri-neft sektorunun genişləndirilməsi üçün ciddi tədbirlər həyata keçirilir. Bu sahələr arasında “yaşıl iqtisadiyyat” və “yaşıl enerji” də var. Onların yaxın gələcəkdə reallaşması üçün 10 illik müddəti əhatə edən vergi güzəştləri, sosial sığorta ödənişlərində azadolmalar və gömrük rüsumlarından müəyyən müddətlik azad olunma mexanizmləri böyük əhəmiyyət kəsb edir. Dövlət qarşısında məqsəd qoyur ki, xüsusən ucqar regionlarda sahibkarlığın daha çox şaxələndirilməsi, yeni iş yerlərinin yaradılması və ixrac potensialının artırılması təmin olunsun. Muxtar respublikamızın da xarici ölkələrlə sərhədi var və həmin ölkələrlə əməkdaşlıq imkanları baxımından əlverişli regiondur. Yaxın gələcəkdə iqtisadi əlaqələrin genişlənməsi ilə ölkəmizin ixrac məhsullarının xarici bazarlara çıxarılması üçün perspektiv imkanlar yaranır. Bunun üçün regiona xarici investisiyalar vacibdir. Təhlillər göstərir ki, xüsusilə qardaş Türkiyədən gələcək iş adamlarının yatırımları böyük əhəmiyyət daşıyır. Lakin burada əsas hədəf bu iqtisadi bölgədə rezident statusuna malik, faktiki olaraq burada fəaliyyət göstərən sahibkarlara imkanların yaradılmasıdır. Sözügedən bu dəstək də iqtisadi fəallığın artmasına səbəb olacaq.




***– Ümumilikdə, tətbiq olunan güzəştlər perspektivdə nə vəd edir?***

– Muxtar respublikanın kənd təsərrüfatı və turizm potensialı ilə yanaşı, xaricdən gətiriləcək yeni texnologiya ilə innovativ sənayenin də inkişafı gələcəkdə maraq doğurur. Süni intellektin tətbiqi ilə müxtəlif sahələrdə (tikinti, nəqliyyat, ticarət, servis, turizm və s.) sensorlu idarəetmə (Əşyaların İnterneti (İoT)) modellərinin sahibkarlıqda tətbiqi Naxçıvanda fəaliyyət göstərən rezident sahibkarlar üçün də kənd təsərrüfatı, turizm, ticarət sahələrində, həmçinin sənaye parkları və Naxçıvan Dövlət Universiteti nəzdində yaradılan texnoparkın istifadəyə verilməsi ilə yeni bazar imkanları yaradır. Şərur Sənaye Məhəlləsində artıq bu istiqamətdə işlər görülür. Bu imkanlar sahibkarlar üçün böyük əlverişli fürsət olacaq, çünki güzəştlər onların fəaliyyətinin genişlənməsi və rəqabət qabiliyyətinin artırılması üçün güclü baza yaradacaq. Azad İqtisadi zonalarda əvvəllər çətinliklərə görə nəzərdə tutulan təşəbbüslər reallaşmırdı. Lakin bu onillik güzəşt sahibkarlığın inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Gəlir və mənfəət vergisindən, eləcə də dividendlərin vergisindən azad olunma imkanları sahibkarların fəaliyyətinə müsbət təsir göstərəcək. Bu güzəştlər xidmət sektoru və turizm sahələrinin inkişafına da dəstək olacaq. Bu tədbirlər uzunmüddətli iqtisadi inkişaf, texnoloji tərəqqi və əmək resurslarının, xüsusən qadınların və gənclərin iş qüvvəsindən səmərəli istifadə baxımından dövlət tərəfindən atılmış mühüm addımdır.

*– Ətraflı məlumat üçün təşəkkür edirik.*

**✍ Bülbül RÖVŞƏNQIZI**

# Prezident İlham Əliyevin dəstəyi ilə Naxçıvanda sahibkarlıq yeni inkişaf mərhələsinə yüksəlir

**Ulu Öndərin layiqli siyasi varisi Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etməyə başladığı 2003-cü ildən bəri sahibkarlığın inkişafı yeni məzmun, dəyər qazanmaqla özünün yüksəliş dövrünə qədəm qoydu. Özəl sektorun inkişafı üçün dövlət dəstəyi daha da artırıldı, yeni fəaliyyətə başlayan sahibkarlara güzəştli şərtlərlə kreditlər verilməklə onların ilkin sərmayə əldə etməsinə imkanlar yaradıldı. Son beş ildə isə Prezident İlham Əliyevin rəhbərliyi və uzaqgörən siyasəti sayəsində Azərbaycan həm müharibə meydanında, həm də sülh masasında tarixi zəfərlər qazanmaqla özünün yeni inkişaf xəritəsini uğurla inşa etməkdədir. Bu inkişaf və tərəqqi xəritəsində işğaldan azad olunmuş Qarabağ torpaqları ilə paralel Naxçıvan da böyük yerə və rola malikdir. Dövlət başçısının "Naxçıvanla bağlı böyük planlarımız var" ideyasına söykənən genişmiqyaslı konsepsiyanın prioritetləri sırasında reallaşma mərhələsində olan Zəngəzur dəhlizi, Azad İqtisadi Zona və "yaşıl enerji" layihələri yer alır.**



*Sahibkarlara çox böyük hərtərəfli dəstək göstərilir. Birincisi, Prezidentin dəstəyi. Mən dəfələrlə demişəm ki, Azərbaycan iqtisadiyyatının gələcəyi sahibkarlığın inkişafından asılıdır.*

**İlham ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*



## Dövlət dəstəyi, güclü siyasət, real nəticə: Naxçıvanda sahibkarlığın yüksəlişi

Naxçıvanın sosial-iqtisadi inkişafının əsas yol xəritəsini müəyyənləşdirən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da bu bölgənin tərəqqisi naminə mühüm təşəbbüs və layihələrin icrası nəzərdə tutulur. Həmin layihələr, ilk növbədə, muxtar respublika iqtisadiyyatının dirçəldilməsi və burada əlverişli biznes mühitinin formalaşdırılmasını hədəfləyir. Proqramın icrasını təmin edən, xüsusilə kiçik və orta sahibkarlığın genişlənməsinə, xidmət sektorunun canlanmasına təkan verəcək mütərəqqi addımlardan biri də ötən il dekabrın 29-da Prezident İlham Əliyevin Milli Məclisin qəbul etdiyi Vergi Məcəlləsinə, "Gömrük tarifi haqqında" və "Sosial sığorta haqqında" qanunlara dəyişiklikləri təsdiqləməsi oldu. Vergi Məcəlləsi və "Gömrük tarifi haqqında" Qanuna dəyişikliklə Naxçıvan Muxtar Respublikasının rezidentləri 2026-cı ilin yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən və gömrük rüsumlarından azad edildilər.

## Güzəştlər sahibkarlara stimul verir

Vergi Məcəlləsinə edilən əlavələrə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədilə xammal və materialların idxalı bu il yanvarın 1-dən etibarən 10 il müddətinə ƏDV-dən azad edilib. Bütün bu proseslərin reallaşması Naxçıvanda inkişaf coğrafiyasını xeyli genişləndirəcək, həm sənaye, həm də kənd təsərrüfatı dirçəldiləcək, ticarət, logistika ilə yanaşı, turizm sektorunda da böyük canlanma yaranacaq. Bu qərarlar Naxçıvanda sahibkarlığın inkişafı istiqamətində yeni dönəmin başlandığını göstərir. Bu yeniliklər bölgənin həm iqtisadi, həm də sosial mənzərəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaqla, ümumilikdə, ölkə iqtisadiyyatının dayanıqlılığının artırılmasına və vətəndaşların yaşayış səviyyəsinə əhəmiyyətli töhfələr verəcək. Yaradılan münbit şəraitdən istifadə edən ailə təsərrüfatları kiçik sahibkarlara çevriləcək. Bu münbit şərait sahibkarlıqla məşğul olan insanları yeni müəssisələr açmağa sövq etməklə yanaşı, bölgəyə xarici sərmayədarların gəlməsinə səbəb olacaq. Bütün bunlarla yanaşı, uzun illərdir ki, Naxçıvanda formalaşan sahibkarlıq mühiti daha da şaxələnib güclənəcək. Muxtar respublikanın ən çətin günlərində yaradılan və ötən il 30 illik yubileyini qeyd edən "Cahan Şirkətlər Qrupu" MMC kimi böyük şirkətlər də bu işə öz töhfəsini verəcək. Qeyd edək ki, 30 ildə şərəfli yol keçərək böyüyüb, inkişaf edib, Naxçıvan iqtisadiyyatının ayrılmaz hissəsinə çevrilən bu şirkətin çoxsaylı tərəfdaşları arasında həm yerli, həm də beynəlxalq səviyyədə tanınmış şirkətlər var. "Cahan" Naxçıvandan dünya bazarlarına çıxan ölkənin aparıcı holdinqlərindən biridir.

## "Cahan Şirkətlər Qrupu" MMC 340 yeni iş yeri açacaq

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqına daxil olan müəssisələrin layihələrinin maliyyələşdirilməsi üçün, ümumilikdə, 16,5 milyon manat məbləğində güzəştli kredit vəsaiti ayrılıb. Ayrılmış kredit vəsaitləri sənaye, tikinti və istehsal sahələrini əhatə edən layihələrin icrasına yönəldilib. Bu vəsaitlər hesabına 310 iş yeri yaradılıb. Ölkə başçısının sahibkarlığa qayğısı ilə vergi, gömrük və sosial sığorta güzəştlərinin qüvvəyə minməsi, həmçinin göstərilən dəstək nəticəsində 2026-cı il ərzində daha 340-a yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Muxtar respublikada fəaliyyət göstərən sahibkarlara dövlətimiz tərəfindən daim dəstək göstərilib. Bunun bariz nümunəsini hazırda burada fəaliyyət göstərən müəssisələrin timsalında görürük.

## Naxçıvan inkişafının ən yüksək mərhələsinə qədəm qoyacaq

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasının idarəetmə strukturunda aparılan islahatlar çərçivəsində idarəçiliyin bütün sahələrində şəffaflaşma prosesi aparılıb, ölkə sisteminə inteqrasiya uğurla reallaşdırılıb. Dövlətimizin başçısı 2023-cü il iyunun 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncam imzalayaraq Naxçıvanın tərəqqisi naminə yeni yol xəritəsini müəyyənləşdirib. Prezident İlham Əliyevin ***"Sahibkarlara çox böyük hərtərəfli dəstək göstərilir. Birincisi, Prezidentin dəstəyi. Mən dəfələrlə demişəm ki, Azərbaycan iqtisadiyyatının gələcəyi sahibkarlığın inkişafından asılıdır"*** fikirlərindən yola çıxaraq deyə bilərik ki, Naxçıvanın gələcəyi üçün də vacib sayılan işlərdən biri olan sahibkarlığın inkişafı dövlətimizin xüsusi nəzarətindədir. Zəngəzur dəhlizinin açılması ilə bu qədim diyar qapılarını həm də xarici sahibkarların üzünə açaraq tarixi inkişafının ən yüksək mərhələsinə qədəm qoyacaq.



# Babək, Culfa və Şahbuz rayonlarında “Sağlam məhəllə”lər istifadəyə verilib





Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin “Sağlam məhəllə” layihəsi əsasında regionlarda yaradılan idman meydançaları sağlam həyat tərzinin təbliği, gənclərin və uşaqların asudə vaxtlarının səmərəli təşkili, eyni zamanda məhəllə infrastrukturunun yenilənməsinə xidmət edir. Naxçıvan Muxtar Respublikasında da “Sağlam məhəllə” layihəsinin icrası ilə bağlı işlər görülüb.

Fevralın 6-da Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov və idman ictimaiyyəti nümayəndələrinin iştirakı ilə Babək, Culfa və Şahbuz rayonlarında “Sağlam məhəllə”lər istifadəyə verilib.

Layihəyə əsasən həmin yerlərdə açıq havada idman fəaliyyətləri üçün uyğun mühit yaradılıb. Vətəndaşlar burada mini-futbol, basketbol, stolüstü tennis və şahmat idman növləri ilə məşğul ola, eyni zamanda trenajor avadanlıqlarından faydalana biləcəklər. Bu da, öz növbəsində, yaşından asılı olmayaraq, sakinlərin bədən tərbiyəsi və idmana təşviqi istiqamətində atılan önəmli addımdır.





# Naxçıvanda “Gənc Fest” festivalı keçirilib

“Naxçıvanqala" Tarix Memarlıq Muzey Kompleksində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı əsasında Naxçıvan şəhərində 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə “Gənc Fest” festivalı keçirilib. Ölkəmizdə həyata keçirilən “Gənclər həftəsi” proqramı çərçivəsində təşkil olunan festival çərçivəsində hərbi-vətənpərvərlik, yaradıcılıq və əyləncə zonalarının fəaliyyət ilə yanaşı, intellektual müsabiqələr, interaktiv təlimlər də təşkil olunub. Festivalda Naxçıvan Dövlət Filarmoniyasının solistləri və tanınmış ifaçı Mətin Hüseynzadə (Madteen) konsert proqramı ilə çıxış edib. Qeyd edək ki, “Gənc Fest” gənclərin intellektual, yaradıcı və fiziki potensialının inkişaf etdirilməsi, onların sosial fəallığının artırılması və milli-mənəvi dəyərlərə bağlılıq ruhunun gücləndirilməsi məqsədi daşıyıb.

















# Naxçıvanda yeniyetmə oğlan və qız voleybolçular arasında zona birincilikləri üzrə I mərhələnin son oyunu keçirilib



Son zamanlar muxtar respublikada voleybol idman növünün inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Yeniyetmə oğlan və qız voleybolçular arasında Naxçıvan Muxtar Respublika zona birincilikləri üzrə I mərhələnin son oyunları keçirilib. Belə ki, U18 yaş kateqoriyası üzrə oğlanların mübarizəsində 3 qarşılaşma baş tutub. Yarışların keçirilməsində əsas məqsəd 2026-cı il ərzində Bakıda yeniyetmələr arasında keçiriləcək Azərbaycan çempionatlarının play-off mərhələlərində Naxçıvanı təmsil edəcək komandaların tərkibini müəyyənləşdirmək, muxtar respublikada voleybol idman növünü inkişaf etdirmək, ən güclü idmançıları müəyyən etmək, idmanın kütləviliyinin artırılmasına nail olmaq və peşəkar yerli voleybolçuların sayını artırmaqdan ibarətdir. Qeyd edək ki, ikinci və üçüncü mərhələnin oyunları 10-12 fevral tarixlərdə oynanılacaq.

I mərhələnin son oyununda Sədərək-Naxçıvan 1:3, Culfa-Kəngərli 3:2, Sədərək-Şərur 3:0 nəticələri qeydə alınıb. Biz də oyunlarda iştirak edib yeniyetmələrin təəssüratlarını öyrəndik.

“Möminə xatun” komandasında çıxış edən Leyla Alışlı bildirib ki, artıq iki ildir, idmanla peşəkar şəkildə məşğul olur. Onun sözlərinə görə, bundan əvvəl də müxtəlif yarışlarda iştirak edib və hər dəfə yüksək nəticələr göstərməyə çalışıb: “Komanda olaraq iştirak etdiyimiz bütün yarışlarda qalib olmağı bacarmışıq, xüsusilə aprel ayında Bakıda keçirilən respublika yarışında birinci yerə layiq görülmüşük. Hazırda isə komanda olaraq növbəti mərhələ üçün keçirilən seçmə yarışlarında iştirak edirik”.

Leyla Alışlı qeyd edib ki, bu seçmələr onların gələcək beynəlxalq arenalarda çıxışı üçün xüsusi əhəmiyyət daşıyır: “Biz hər məşqdə daha çox çalışırıq, hədəfimiz “Möminə xatun” adını daha böyük yarışlarda da layiqincə təmsil etməkdir.

Şərur rayonunun voleybol komandasında çıxış edən Altay Tahirov bildirdi ki, artıq 2 ildir, voleybol idman növü ilə mütəmadi şəkildə məşğul olur: “Keçirilən bu cür yarışlar bizim üçün çox böyük əhəmiyyət daşıyır. Çünki həm təcrübə qazanırıq, həm də öz üzərimizdə işləmək üçün imkan əldə edirik. Yarışlara kifayət qədər yaxşı hazırlaşmışdıq və bu turnir bizə gələcəkdə daha yaxşı nəticələr göstərmək üçün əlavə motivasiya verdi. Bu yarışdan əvvəl də müxtəlif turnirlərdə iştirak etmişik. Məqsədimiz isə hər dəfə əvvəlkindən daha yaxşı çıxış etməkdir. Qarşıdakı yarışlara daha ciddi hazırlaşıb, məşqlərimizi artıraraq daha yüksək nəticələr qazanmağa çalışacağıq. Seçmələrə düşmək məsələsinə gəldikdə, bu yarışda özümü kifayət qədər fəal iştirak etmiş hesab edirəm. Azərbaycan çempionatına çıxmaq üçün hələ üzərimdə daha çox işləməli olduğumu düşünürəm. Buna baxmayaraq, komandamızdan bir neçə oyunçunun fəallığı ilə seçilməsi bizim üçün böyük uğurdur və bu, gələcək üçün bizə əlavə stimul verir”.



“Möminə xatun” komandasının üzvü Gültəkin Kərimli bildirib ki, keçən il Bakıda keçirilən yarışlarda da iştirak edib və həmin yarışlar onun üçün böyük təcrübə olub. Bu il Naxçıvanda təşkil olunan yarışlarda da komanda ilə birlikdə uğurla çıxış ediblər və bütün görüşlərdə qalib olublar. Komandanın bu uğurunda məşqçi və müəllimlərin böyük rolu var: “Biz hər yarış öncəsi məşqçimiz və müəllimlərimizdən böyük motivasiya alırıq. Onlar bizə güvəndiklərini bildirir, qələbəyimizi deyirlər və heç vaxt ruhdan düşməməyimizi tövsiyə edirlər. Bu bizim üçün çox böyük dəstəkdir”, – deyə Gültəkin vurğulayır.



Qeyd edək ki, Naxçıvanın gənc idmançıları hər zaman yüksək səviyyədə mübarizə aparmaqla seçiliblər və ölkə səviyyəsindəki uğurları ilə diqqət çəkirlər. Bütün komandalarımıza play-off mərhələsində uğurlar arzu edirik! Biz inanırıq ki, Naxçıvanın komandaları mübarizələrində əzmlə çıxış edəcək, azarkeşləri sevindirəcək və nəticələrinə görə qürur mənbəyi olacaqlar.

# Uşaqlığımızın bayramı, Xıdır, xoş gəldin!



***Naxçıvanda Novruz qabağı keçirilən bayramlardan biri də Xıdır və yaxud Xıdır Nəbi bayramıdır. Xalq arasında bu bayram "qışın oğlan çağında" deyilən bir vaxtda, Kiçik çillənin onuncu günündə, Novruz bayramına altı həftə qalmış qeyd edilir. Qış hələ tam getməsə də, insanlar məhz bu gün ümid etməyə başlayar, soyuğun içində baharı gözləyərdilər. Xıdır bayramı da elə bu gözləntinin bayramıdır. Bu bayram mənim uşaqlıqdan yaddaşımda qalan bir xatirədir. Xatırlayıram ki, nənəm Xıdır bayramını həmişə böyük sevinclə qarşılayardı. Bu sevinc adi bayram sevinci deyildi, sanki həmin gün evə bərəkətlə yanaşı, yeni bir ümid gələrdi.***



Balacalıqdan Xıdır bayramı ilə bağlı ağlımda qalan ən əsas məqam isə nənəmin Xıdır günü yeddi nemətı (buğda, qoz, fındıq, badam, küncüt, noxud və qarğıdalı) qovurması idi. Bu nemətləri ocağın üstündə qovurarkən mətbəxi bürüyən ətir bayramın başladığını xəbər verərdi. Ardınca nənəm nəvələrini başına yığar bizim üçün həmin nemətlərdən qovut hazırlayardı. O sadəcə, yemək deyildi – paylaşmaq, birgəlik kimi dəyərlərin qorunması idi. O vaxtlar bu adətlərin mənasını tam anlamırdım. İndi isə anlayıram ki, nənəm bu bayram vasitəsilə bizə bolluqdan çox inam aşılayırdı.



Bütün evlərdə olduğu kimi, biz də stolun üstünü müxtəlif şirniyyatlarla bəzəyirdik. Bu süfrə evə bayram ovqatı gətirərdi. Axşam düşəndə biz də digər uşaqlar kimi, qonşuların qapısını döyüb "Xıdıra xıdır deyərlər, Xıdırın payını verərlər" söyləyib dərhal gizlənərdik.

Bununla yanaşı, adət zamanı uşaqların söylədiyi xüsusi misralar da vardı:

*Çatma, çatma, çatmaya,*
*Çatma yerə batmaya.*
*Xıdırın payın kəsənin,*
*Ayağı yerə çatmaya.*

Bayram adətinə görə, atılan papağa ev sakinləri Xıdır payı ilə yanaşı, şokolad və müxtəlif şirniyyatlar qoyardılar. Bizim üçün bu sadəcə, pay toplamaq deyildi. O gecə küçələrdə uşaqların gülüşü, evlərdə sevinc hissi dolaşardı. Bu ənənə Xıdır bayramının həm əyləncə, həm də birliyi, paylaşma ruhunu əks etdirən tərəfini göstərirdi. Hər qapı döyüləndə, hər papaq atılanda bayramın ruhu bir evdən o birinə keçirdi.



Tədqiqatçıların araşdırmalarından məlum olur ki, Xıdır Nəbi, yaxud Xıdır İlyas Naxçıvan diyarının qədim tarixə malik və el arasında geniş yayılmış mərasimlərindən biridir. Bu bayram hər il fevral ayının 9-u, 10-u, bəzi kəndlərdə isə 14-ü və 15-i Xıdır İlyasın doğulduğu gün kimi qeyd edilir. Mərasim, eyni zamanda fevralın 1-dən 20-dək davam edən Kiçik çillə dövrünə təsadüf edir. Xıdır Nəbi bayramı, əsasən, Naxçıvan, Tovuz, Qazax və digər bölgələrdə müxtəlif adlarla – Xıdır İlyas, Xıdır Zində kimi qeyd olunur. Hər bir rayonda Xıdır bayramı fərqli adət-ənənələrlə qeyd olunur. Bizim bölgədə isə bayram səhər tezdən oyanmaq və Xıdırla yanaşı, plov süzməklə başlayardı. Bu yemək adi süfrə üçün yox, inam üçün bişirilərdi. Plov Xızır Peyğəmbərin adına niyyət edilərək hazırlanardı. İnanca görə, Xıdır axşamı Xızır Peyğəmbərin evlərə gələcəyi və Xıdır payına ayaq basacağı ümid edilərdi. Buna görə gecə xüsusi bir qabda qovut hazırlanıb kənara qoyulardı. Bayramın səhəri kim tez oyanıb həmin qaba baxsa və orada ayaq izi görsəydi, bu niyyətin qəbul olunduğuna işarə sayılırdı. Həmin gün niyyətlə qurban kəsilərdi. Bu adətlər yalnız bayram deyil, insanların bir-birinə və sabaha olan inamının göstəricisi idi. Yurdumuzun bir-birindən maraqlı adət-ənənələrinin yaşadılması və gələcək nəsillərə ötürülməsi bizim üçün milli-mənəvi dəyərlərimizin qorunması və yaşadılması baxımından xüsusi əhəmiyyət daşıyır. Xıdır bayramı da bu dəyərlərin bariz nümunələrindəndir. Arzu edirik ki, bu bayram bütün evlərə bol ruzi və bərəkət gətirsin.

✍ **Zəhra VƏLİYEVA**

## "Zəngəzur" elektrik ötürmə xəttinin çəkilməsinə başlanılıb
## *Naxçıvan Muxtar Respublikası ölkə enerji sisteminə qoşulacaq*

Naxçıvan Muxtar Respublikasının ölkənin əsas elektrik enerji sistemi ilə birləşdirilməsi, eyni zamanda Azərbaycan-Türkiyə-Avropa beynəlxalq enerji dəhlizinin formalaşdırılması məqsədilə Zəngəzur xəttinin tikintisinə başlanılıb. Ölkə başçısının tapşırığına əsasən "AzərEnerji" tərəfindən Cəbrayıldan Ağbəndə qədər 74 km, paralel olaraq isə Naxçıvandan Ordubadın sərhədinədək 105 km uzunluğunda, ikidövrəli və 1000 meqavat yükötürmə qabiliyyətinə malik 330 kilovoltluq yüksəkgərginlikli ötürmə xətti inşa olunur.

Araz çayı boyunca bir sıra ərazilərdə isə dağlıq və qayalı massivlərin yarılmasından keçən xətt "AzərEnerji" tərəfindən son dərəcə mürəkkəb relyef və ağır iqlim şəraitində çəkilir.

Layihənin növbəti mərhələsində Zəngəzur dəhlizini keçməklə 44 km məsafədə əlavə ötürmə xətti inşa ediləcək və həmin xətt gələcəkdə Ağbənd və Ordubad istiqamətində çəkilən xəttə birləşdiriləcək. Eyni zamanda Naxçıvan şəhərində yeni 330 kV-luq yarımstansiya tikiləcək. Artıq bu məqsədlə 49 hektar torpaq sahəsi ayrılıb və mobilizasiya işlərinə start verilib.

Azərbaycan-Türkiyə-Avropa enerji dəhlizi layihəsinin davamı olaraq daha bir strateji mərhələnin icrası planlaşdırılır. Belə ki, 230 km məsafədə Naxçıvandan Türkiyəyə 400 kV-luq ötürmə xəttinin çəkilməsi və ölkə tarixində ilk dəfə olaraq 400 kV gərginlik sinfi üzrə çevirici yarımstansiyanın tikilməsi nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikasının ölkənin vahid enerji sisteminə tam inteqrasiyası, muxtar respublikanın tezlik tənzimlənməsində xarici ölkədən asılılığının aradan qaldırılması, həmçinin Avropa enerji bazarlarına çıxış imkanlarının yaradılması baxımından bu layihə strateji əhəmiyyət daşıyır və Azərbaycan tarixinin ən iri enerji layihələrindən biri kimi qiymətləndirilir.



## Sədərək rayonunda su təchizatı və kanalizasiya sistemlərinin qurulmasına başlanılacaq



Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda muxtar respublikanın rayon mərkəzlərinin və kəndlərin içməli su təminatının yaxşılaşdırılması ilə bağlı layihələrin həyata keçirilməsi nəzərdə tutulub.

Dövlət Proqramının icrası çərçivəsində Sədərək rayonunun Heydərabad qəsəbəsi, Sədərək və Qaraağac kəndlərinin su təchizatı və kanalizasiya sistemlərinin qurulması məqsədilə ümumi dəyəri 7,6 milyon manat olan podrat müqaviləsi bağlanılıb. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq rayonun suvarma infrastrukturunun yenidən qurulması məqsədilə 2025-ci ilin dekabr ayında təkliflər hazırlanıb və "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış komissiyada baxılıb. Tikinti-quraşdırma işlərinə yaxın vaxtlarda başlanılacaq.

## Yer təkindən istifadə ilə bağlı 11 mart 2026-cı il tarixdə saat $11^{00}$-da keçiriləcək hərracın elanı

**Hərrac auksion formasında keçiriləcəkdir.**
**Culfa rayonu “Ərəzin II” gəc-gips (sement xammalı) yatağı**

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın mərkəz koordinatı | Başlanğıc qiyməti (manatla) | Beh məbləği (10%) (manatla) | İştirak haqqı (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Ərəzin II | LOT-1 | 175 341 m3 | 11,9 ha | Gəc-gips | 10 ilədək | X-4327783,0 Y-547755,0 | 35 068 | 3506,8 | 540 |

Hərracın keçiriləcəyi ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6 (Hərracların Təşkili Mərkəzi PHŞ inzibati binası).

**Qeyd:** Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərracla bağlı məlumat almaq, iştirak haqqı və 10% miqdarında beh məbləğini ödəmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edə bilərlər (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42).

Yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün aşağıdakı sənədləri müraciət ərizəsinə qoşma olaraq təqdim etməlidirlər:

*1. Hərracda iştirak etmək üçün yazılı ərizə-müraciət (əlavə olunur);*

*2. Hərracda iştirak haqqının ödənilməsi barədə bank sənədinin əsli;*

*3. Hərracda (müsabiqə və auksion) iştirak etmək üçün ödənilən iştirak haqqı (hərrac xərcləri) hərrac predmetinin ehtiyat həcmlərinə münasibətdə aşağıdakı qaydada (lot üzrə) müəyyən edilir:*

*Ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrədək – 540,00 (beş yüz qırx) manat;*

*Ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrdən 500 000 (beş yüz min) kubmetrədək – 810,00 (səkkiz yüz on) manat;*

*Ehtiyat həcmi 500 000 (beş yüz min) kubmetrdən yuxarı olduqda – 1080,0 (bir min səksən) manat.*

*4. “Vergiödəyicisinin vergi borcu barədə” arayış (müvafiq sənəd elektron qaydada alındıqda notarial təsdiqli olması zəruridir);*

*5. İddiaçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı (hesabdan çıxarış);*

*6. İddiaçının tam adı, hüquqi statusu: hüquqi şəxsdirsə – nizamnaməsi, VÖEN-şəhadətnaməsi və dövlət reyestrdən çıxarışı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; fiziki şəxsdirsə – şəxsiyyəti təsdiq edən sənəd və VÖEN-şəhadətnaməsi (notarial qaydada təsdiqlənmiş);*

*7. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağ-mədən mühəndisi və ya 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;*

*8. İddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır.

İddiaçılar hərracda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 2 mart 2026-cı il saat $18^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 ünvanında (Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası) təqdim etməlidirlər.

Hərracda iştirak etmək üçün hüquqi və fiziki şəxslər nazirliyə “Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi qaydalarına” uyğun ərizə (bundan sonra “ərizə”) təqdim edir.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Hərracda iştirak etmək istəyənlər hər lot üzrə yatağın ehtiyat həcminə uyğun məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 **(Əlaqələndirici şəxs: Ramiz Rəsulov, telefon: (036) 545-34-85, 050-723-85-25)** ünvanından ala bilərlər.

| |
|---|
| Hesab: AZ21NABZ12360100000000005944 |
| VÖEN: 0200003621 |
| Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu |
| Büdcə təsnifat kodu: 142325 |
| Büdcə səviyyəsinin kodu: 2 |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10% miqdarında beh məbləği ödənilməlidir.

Beh məbləği ödənilmədiyi təqdirdə iddiaçı hərraca buraxılmır.

## Yer təkindən istifadə ilə bağlı 17 mart 2026-cı il tarixdə saat $11^{00}$-da keçiriləcək hərracın elanı

***Hərrac auksion formasında keçiriləcəkdir.***
***Ordubad rayonu “Əylis” qum-çınqıl yatağı***

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın mərkəz koordinatı | Başlanğıc qiyməti (manatla) | Beh məbləği (10%) (manatla) | İştirak haqqı (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Əylis | LOT-1 | 500 000 m3 | 10 ha | Qum-çınqıl | 1 ilədək | X-4305261,0 Y-586358,0 | 50 000 | 5000 | 1080 |

Hərracın keçiriləcəyi ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6 (Hərracların Təşkili Mərkəzi PHŞ inzibati binası).

**Qeyd:** Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərracla bağlı məlumat almaq, iştirak haqqı və 10% miqdarında beh məbləğini ödəmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edə bilərlər (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42).

Yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün aşağıdakı sənədləri müraciət ərizəsinə qoşma olaraq təqdim etməlidirlər:

*1. Hərracda iştirak etmək üçün yazılı ərizə-müraciət (əlavə olunur);*

*2. Hərracda iştirak haqqının ödənilməsi barədə bank sənədinin əsli;*

*3. Hərracda (müsabiqə və auksion) iştirak etmək üçün ödənilən iştirak haqqı (hərrac xərcləri) hərrac predmetinin ehtiyat həcmlərinə münasibətdə aşağıdakı qaydada (lot üzrə) müəyyən edilir:*

*Ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrədək – 540,00 (beş yüz qırx) manat;*

*Ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrdən 500 000 (beş yüz min) kubmetrədək – 810,00 (səkkiz yüz on) manat;*

*Ehtiyat həcmi 500 000 (beş yüz min) kubmetrdən yuxarı olduqda – 1080,0 (bir min səksən) manat.*

*4. “Vergiödəyicisinin vergi borcu barədə” arayış (müvafiq sənəd elektron qaydada alındıqda notarial təsdiqli olması zəruridir);*

*5. İddiaçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı (hesabdan çıxarış);*

*6. İddiaçının tam adı, hüquqi statusu: hüquqi şəxsdirsə – nizamnaməsi, VÖEN-şəhadətnaməsi və dövlət reyestrdən çıxarışı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; fiziki şəxsdirsə – şəxsiyyəti təsdiq edən sənəd və VÖEN-şəhadətnaməsi (notarial qaydada təsdiqlənmiş);*

*7. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağ-mədən mühəndisi və ya 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;*

*8. İddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır. İddiaçılar hərracda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 6 mart 2026-cı il saat $18^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 ünvanında (Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası) təqdim etməlidirlər.

Hərracda iştirak etmək üçün hüquqi və fiziki şəxslər nazirliyə “Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi qaydalarına” uyğun ərizə (bundan sonra “ərizə”) təqdim edir.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Hərracda iştirak etmək istəyənlər hər lot üzrə yatağın ehtiyat həcminə uyğun məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 **(Əlaqələndirici şəxs: Ramiz Rəsulov, telefon: (036) 545-34-85, 050-723-85-25 )** ünvanından ala bilərlər.

| |
|---|
| Hesab: AZ21NABZ12360100000000005944 |
| VÖEN: 0200003621 |
| Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu |
| Büdcə təsnifat kodu: 142325 |
| Büdcə səviyyəsinin kodu: 2 |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10% miqdarında beh məbləği ödənilməlidir.

Beh məbləği ödənilmədiyi təqdirdə iddiaçı hərraca buraxılmır.

## 8-18 yaşlı şahmatçılar arasında muxtar respublika birinciliyinə start verilib



Azərbaycan Şahmat Federasiyasının təşəbbüsü, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə fevralın 2-dən Naxçıvan Şahmat Mərkəzində 8-18 yaşlı şahmatçılar arasında Naxçıvan Muxtar Respublikası birinciliyinə start verilib.

Fevralın 7-dək davam edən birincilikdə 6 fərqli yaş qrupunda 100-ə yaxın şahmatçı iştirak edir.

Qeyd edək ki, bir neçə ildir ki, muxtar respublikada bu yaş kateqoriyası üzrə muxtar respublika birinciliyi keçirilmirdi. Yarış “İsveçrə” sistemi üzrə aparılır.

İlk 3 yeri tutan şahmatçılar mart ayında keçiriləcək 8-18 yaşadək şahmatçılar arasında Azərbaycan çempionatında iştirak haqqı qazanacaqlar.



## Karateçilər beynəlxalq turnirdə ölkəmizi uğurla təmsil ediblər




Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Azərbaycan Karate Federasiyasının dəstəyi, “Arpaçay” İdman Birliyinin təşkilatçılığı ilə 30-31 yanvar tarixlərdə Sərhədçi İdman Mərkəzində şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş XI “Arpachay Open” beynəlxalq karate turniri keçirilib. 12 ölkədən 1200-ə yaxın idmançının mübarizə apardığı yarışda Naxçıvanda fəaliyyət göstərən “Qapıcıq” və “Naxçıvan” Karate klubları 2 məşqçi və 15 idmançı ilə təmsil olunublar. Yarışın yekun nəticələrinə əsasən Naxçıvandan olan karateçilər 4 qızıl, 2 gümüş və 4 bürünc medal olmaqla, ümumilikdə, 10 medal qazanıblar.

“Qapıçıq” Karate Klubunun idmançılarından Məhəmməd Quluzadə (12 yaş, 55 kq) və Əli Rəhimov (8 yaş, 27 kq) çıxışını birinci yerlə tamamlayaraq qızıl medala sahib çıxıblar. Altay Əliyev (11 yaş, 40 kq) və Fuad Hüseynov (8 yaş, 30 kq) gümüş, Xədicə Bayramova (10-11 yaş, 38 kq), Adil Əliyev (9 yaş, 34 kq), İsa Abbasov (9 yaş, 27 kq) və Yusif Həsənli (7 yaş, 24 kq) isə bürünc medalla mükafatlandırılıblar.

“Naxçıvan” Karate Klubunun idmançılarından Fatimə Bağırzadə (10-11 yaş, +38 kq) və Sona Nəcəfbəyli (8-9 yaş, –30 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib çıxıblar. “Arpachay Open” turniri çərçivəsində uşaqlar arasında ölkədaxili yarış formatında keçirilən görüşlərdə də “Naxçıvan” Karate Klubunun idmançıları fərqləniblər. Belə ki, Fuad Sadiqov (10-11 yaş, –40 kq) birinci, Ruslan Fətullazadə (9 yaş, –40 kq) isə üçüncü yerin sahibi olublar.

### *İtmişdir*

Babək rayonu, Şıxmahmud kəndində Nəcəfov Qələbə Rza oğlunun adına verilən AA-004097 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, SU-6 qəsəbəsi, bina 1, mənzil 8-də yaşayan Hüseynova Nəcibə Muxtar qızının adına olan 9825 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Aqrar Sənaye Kombinatının “Araz” kolxozu tərəfindən tərtib olunmuş obyektin planı itdiyindən etibarsız sayılır.

***

Culfa rayon sakini Vəliyev Qadir Fərrux oğlunun adına olan 456211 nömrəli veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Əliyeva Məleykə Orucəli qızının adına olan JN-$1201^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayon sakini Həsənov Səlahəddin Musa oğlunun adına olan AD-0049929 seriya nömrəli kiçik çavuşun hərbi bileti itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 23

*Nömrəyə məsul:* Ramiyə Əkbərova, Turan Məmmədli, Elnurə Cəfərova
*Dizayner:* Həbibə Allahverdiyeva
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*